

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 2 (24.488)
17 yanvar 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Qalib Azərbaycan azadlıq mübarizəsinə ucaldılan ən böyük abidədir



## Ulu Öndər Heydər ƏLİYEV:

*“20 Yanvar gününü xatırlayarkən hər birimiz, eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi. Şəhidi olan xalq qəhrəman xalqdır. Biz şəhidlərimizin qəm-qüssəsini çəkirik, ancaq onların şəhidliyə getməsi ilə fəxr edirik. Çünki onlar Vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar.”*

Tariximizin qəhrəmanlıq səhifəsi, xalqımızın vətənpərvərlik nümunəsi, azadlıq mübarizəsinin rəmzi, şəraf, ləyaqət, iftixar günüdür bu gün. Bəli, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə tökülmüş qanlar Azərbaycan xalqının müstəqillik uğrundakı mübarizə əzmini qıra bilmədi, igid oğullarımız şəhidlik zirvəsinə yüksələrək xalqımızın yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini bütün dünyaya, ən əsası isə faciənin təşkilatçılarına nümayiş etdirdilər. Bu tarix Azərbaycan xalqının əyilməz vüqara, mübariz ruha malik olduğunu, müstəqilliyi pay kimi deyil, haqqı olaraq qazandığını sübut etdi.

1990-cı il yanvarın 19-da Azərbaycan SSR Ali Soveti hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasən yanvarın 19-dan 20-nə keçən gecədən etibarən “Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında” Fərman qəbul etdi.

Yanvarın 19-da SSRİ DTK-nın “Alfa” qrupu və respublika DTK-sının rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində ölkə televiziyasının enerji bloku partladıldı ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Halbuki həmin vaxt 26 yerdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən Salyan kazarmasının giriş-çıxış yolu kəsilmişdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyətin tətbiqinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21$^{00}$-dan etibarən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. “Bakı əməliyyatı”na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirdilər.

Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant qrupları şəhər üzərinə hücuma keçmişdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtmışdı. Şəhərin küçələri güllələnmiş və yaralanmış günahsız adamların – qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaraladılar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürüldü. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda – yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirildi. Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edildi. Həlak olanların arasında qadınlar, uşaqlar, qocalar, həmçinin təcili yardım işçiləri və polislər də var idi. Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılandı. Qardaş Türkiyədə əhali Bakıda törədilən cinayətlərə sərt reaksiya verərək ölkənin hər yerində mitinq və nümayişlər keçirdi.

Səhifə ➡ 2

# Qalib Azərbaycan azadlıq mübarizəsinə ucaldılan ən böyük abidədir



(əvvəli 1-ci səhifədə)

***Faciəyə ilk hüquqi-siyasi qiymət***

Bildiyimiz kimi, 20 Yanvar faciəsinə, qanlı terror aktına ilk dəfə öz etirazını bildirən məhz Ümummilli Liderimiz Heydər Əliyev olub. Ulu Öndər 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək mətbuat konfransı keçirib, bu ağır cinayəti pisləyərək əliyalın əhalinin kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi kəskin ittiham edib. Görkəmli dövlət xadimi Bakıda törədilən qanlı faciənin təşkilatçılarını cinayətkar adlandırıb və aksiyanı törədənlərin məsuliyyətə cəlb olunmasını qətiyyətlə tələb edib. Bu məqamda xüsusi vurğulamaq lazımdır ki, SSRİ-nin hələ hökmünü sürdürdüyü vaxtda onu və başçısını paytaxtın özündə tənqid etmək, sözün əsl mənasında, böyük hünər və cəsarət tələb edirdi. Ancaq Ulu Öndərimiz öz bəyanatında açıq şəkildə ozamankı SSRİ rəhbərinin birbaşa göstərişi ilə tökülən qanlara etirazını, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü bildirdi, ağır günlərdə xalqının yanında olduğunu bir daha sübut etdi. Dahi şəxsiyyətin bu bəyanatı bütün dünyada geniş əks-səda doğurdu. Ulu Öndər sonradan o günləri xatırlayaraq deyib: ***"Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında Ümummilli Liderimiz tərəfindən hazırlanan və təşəbbüsü ilə qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərarda ilk dəfə olaraq Yanvar hadisələrinə siyasi qiymət verilir, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi. Qərarda deyilirdi: *"Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır. Respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətlərin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır".* Bu mühüm tarixi sənəddə 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında "Milli Matəm Günü" kimi qeyd olunması da öz əksini tapıb. 1992-ci il yanvarın 13-də isə daha bir tarixi addım atılıb, "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olunub.

***Naxçıvanın işğalı da qanla yoğrulmuş məkrli planlardan idi***

Bakıda 20 Yanvar hadisələri törədilən vaxt Naxçıvanda da vəziyyət olduqca ağırlaşmışdı. Düşmən qüvvələri, əsasən, Sədərək rayonu istiqamətində hücuma keçərək evləri, həyətləri, məktəbləri, inzibati binaları gülləbarana, top atəşinə tuturdu. Erməniləri bu qədim yurdu ələ keçirməyə iştahalandıran Sədərəyin ticarət, nəqliyyat əlaqələri baxımından əlverişli mövqedə yerləşməsi, xüsusilə də Türkiyə ilə birbaşa sərhədinin olması idi. Ancaq mənfurlar əhalinin birliyi, bərabərliyi qarşısında ağ bayraq qaldırdılar, arzuları gözlərində qaldı. Naxçıvanın bütün ərazilərindən insanlar Sədərəyin müdafiəsinə axışdı. Rayonda bir dənə də olsun ev boşalmadı, hər kəs yurdunu dəyanətlə, mətinliklə qorudu. İgid övladlar böyük şücaət və qəhrəmanlıq göstərərək erməni cəlladlarının muxtar respublika ilə bağlı çoxdankı arzularını gözündə qoydu, mənfur planlarını puça çıxardılar.

Onu da xüsusi vurğulamaq lazımdır ki, 1990-1993-cü illərdə igid oğulların şücaəti ilə yanaşı, uzaqgörən siyasətçi Ulu Öndər Heydər Əliyevin də Sədərəyin düşməndən qorunmasında böyük tarixi xidmətləri, əvəzolunmaz rolu oldu. Naxçıvanın hər yerindən bura üz tutanların təşkilatlanmasını uğurla həyat keçirən Ümummilli Liderin bir neçə dəfə rayona gəlişi hər kəsi ruhlandırdı, insanların mübarizlik əzmini, sabaha inamlarını artırdı. Ümummilli Liderimiz həmin dövrdə Naxçıvanda baş verən hadisələri belə dəyərləndirib: ***"1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə Azərbaycanı Naxçıvanla bağlayan dəmiryol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur. Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı".***

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilib. Ümummilli Liderimizin 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunub. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana qoşun yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz Ümummilli Liderimizin təşəbbüsü ilə reallaşıb.

***20 Yanvar hadisələri milli iradəmizin simvolu kimi daim qürurla xatırlanır***

Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqətdə saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Dövlət başçısının 2006-cı il 19 yanvar tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən faciə qurbanlarının ailələrinə aylıq təqaüd verilir və mütəmadi olaraq məbləği artırılır. Azərbaycan dövlətinin iqtisadi, siyasi və hərbi qüdrətinin günbəgün artması, haqq səsimizin beynəlxalq tribunalardan bəyan edilməsi xalqımızın bir daha faciələrlə, soyqırımlarla sınağa çəkilməcəyinə təminat verir. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən etibarən 44 gün davam edən Vətən müharibəsində Azərbaycan misilsiz tarixi zəfər qazandı, müzəffər Ordumuz əzəli torpaqlarımızı işğaldan azad etdi. Beləliklə, 20 Yanvar faciəsinin qurbanlarının, eləcə də bütün şəhidlərimizin qisası alındı, tökülən qanlar yerdə qalmadı.

Tarixi zəfərimizi müfəssəl şəkildə tamamlayan – 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olundu. Və bu gün Azərbaycan hərbi-siyasi iradə sayəsində, şəhidlərimizin canı, qanı bahasına hərb meydanında qazandığı tarixi zəfəri sülh meydanında da diplomatik müvəffəqiyyətlə sonlandırır. Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində dediyi kimi: ***"Vətən müharibəsindən cəmi beş il keçəndən sonra Ermənistanla paraflanmış sülh müqaviləsi bir daha xalqımızın böyüklüyünü və bizim siyasətimizin müdrikliyini göstərir. Biz cəmi beş ilə yaxındır ki, de-fakto sülh şəraitində yaşayırıq. Biz döyüş meydanında qan tökərək, şəhidlər verərək şanlı Qələbə qazanmışıq və bu Qələbəni dünyanın ən mötəbər yeri olan Amerikanın Ağ Evində, Amerika Prezidentinin iştirakı ilə möhürlədik. Beləliklə, 30 il ərzində əsas vəzifəmiz olan ərazi bütövlüyümüzün bərpası və bütün dünya tərəfindən bunun qəbul edilməsi məsələsi öz həllini tapmışdır".***

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə törədilən faciə istiqlaliyyət, suverenlik, müstəqillik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının apardığı mücadilənin unudulmaz səhifəsidir. Azərbaycan xalqı onun qanlı yaddaşında silinməz iz buraxan 20 Yanvar faciəsini daim xatırlayır, öz qəhrəman övladlarının əziz xatirəsini dərin ehtiramla yad edir. Hər il yanvarın 20-də Bakı vaxtı ilə saat $12^{00}$-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla anılır. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bütün nəsillər üçün qürur, iftixar mənbəyidir. Tarixi zəfərimiz, müstəqil və qüdrətli respublikamız şəhidlərimizin ruhuna dərin hörmətin, ehtiramın ən yüksək ifadəsidir. Qalib və suveren Azərbaycan isə xalqımızın başına gətirilən bütün soyqırımlara, terrorlara, o cümlədən də 20 Yanvar hadisələrinə ən tutarlı cavab, azadlıq mübarizəsinə ucaldılan ən böyük abidədir. Nə qədər ki bütöv, suveren Azərbaycan, müzəffər Ordumuz, qətiyyətli liderimiz, xalq-dövlət həmrəyliyi var, faciə qurbanlarının, şəhidlərimizin xatirəsi də əbədi yaşayacaq, gələcəyimizə işıq saçacaq!

✍ Nail ƏSGƏROV



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Liderimizin siyasi irsini davam etdirərək və Ulu Öndərin səyləri nəticəsində yaradılmış möhkəm təmələ əsaslanaraq dövlətimizi strateji hədəflərə doğru uğurla aparır. Siyasi arenada dövlətin və xalqın gələcəyi ilə bağlı məsuliyyəti öz üzərinə götürməyi, vaxtında və düzgün qərarlar qəbul edərək onların icrasına dair qətiyyətli addımlar ataraq tarixi bir missiyanı yerinə yetirməyi bacaran şəxsiyyətlər xalqın əsl liderinə çevrililər. Bu mənada, Prezident İlham Əliyev müstəqilliyimizin simvolu, Azərbaycanın dünyadakı səsi, bütün dünya azərbaycanlılarının hüquqlarının və təhlükəsizliyinin qarantıdır. O, ənənələr üzərində müasir ölkəmizin yeni reallıqlarını yaradıb, güclü və müstəqil Azərbaycan naminə çalışıb. Bununla da xalqın yüksək etimadını və sonsuz məhəbbətini qazanaraq liderlik keyfiyyətləri ilə Azərbaycan vətəndaşlarının qəlbində özünə əbədi yer edib.

# Haqlı və güclü Azərbaycanı yaradan,
## yaxud Cənubi Qafqaz regionuna sülh gətirən Lider



**Prezident İlham ƏLİYEV:**

*“Mən hesab edirəm ki, gücümüzün əsas mənbəyi haqlı olmağımızdır. Çünki biz haqlıyıq və istənilən auditoriyada, istənilən tədbirdə öz haqlı olmağımızı sübut etmək üçün kifayət qədər əsaslarımız var.”*

Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. O, müasir, ali qanunvericilik və çox güclü sosial siyasətə malik, iqtisadi cəhətdən inkişaf etmiş və regionda güclü mövqeləri olan ölkənin rəhbəridir. Təkcə ötən ilə nəzər salsaq, görərik ki, yanvar-noyabr aylarının yekunları Prezident İlham Əliyevin formalaşdırdığı uzunmüddətli, inklüziv və nəticəyönümlü inkişaf modelinin real təsirlərini aydın şəkildə üzə çıxarır. Xüsusilə də nəqliyyat və logistika sahəsində əldə olunan nailiyyətlər Azərbaycanın regional və qlobal əhəmiyyətini daha da artırmışdır. Ölkənin aparıcı nəqliyyat-logistika mərkəzinə çevrilməsi Prezident İlham Əliyevin irəli sürdüyü geoiqtisadi baxışın məntiqi nəticəsidir. Zəngəzur dəhlizinin açılmasına dair əldə olunan tarixi razılaşma isə Azərbaycanın regional inteqrasiya və sülh gündəliyində aparıcı rolunu strateji səviyyədə möhkəmləndirmişdir.

Bütün bu nəticələr bir daha sübut edir ki, Prezident İlham Əliyevin qurduğu iqtisadi və sosial idarəetmə modeli neft gəlirlərinin səmərəli idarə olunmasına, qeyri-neft sektorunun gücləndirilməsinə, insan rifahının yüksəldilməsinə və dövlətin strateji gücünün artırılmasına xidmət edir. Bu modelin mahiyyəti Prezidentin öz ifadəsi ilə desək, ***“Daha da güclü dövlət, xalqımız üçün daha da yaxşı şərait yaratmaq, Azərbaycan xalqının rifahı, təhlükəsizlik və davamlı inkişaf şəraitində yaşamasını təmin etməkdir”.***

2020-ci ildə Azərbaycan 30 il davam edən mənasız danışıqlara son qoyaraq öz torpaqlarını işğaldan azad etdi. Vətən müharibəsi ilə Azərbaycanın ərazi bütövlüyü, üç il sonra isə torpaqlarımız üzərində dövlət suverenliyimiz təmin edildi. Qazanılmış tarixi zəfər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi, düşünülmüş siyasəti, qətiyyəti və prinsipiallığı nəticəsində bütün istiqamətlərdə əldə olunmuş böyük uğurların, güclü dövləti xarakterizə edən bütün komponentlərin üzvi bağlılığının məntiqi nəticəsi olmuşdur.

Prezident İlham Əliyev Qarabağı işğaldan azad etməklə ədaləti və beynəlxalq hüququ bərpa etdi. Bütün dünya gördü ki, Azərbaycan xalqı böyük xalqdır və biz Qarabağı unutmamışıq. Azərbaycan təkcə Ermənistanla və dünya erməniliyi ilə yox, həm də Ermənistanın himayədarları ilə də müharibə apardı və qələbə qazandı.

Vətən müharibəsi təkcə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası deyil, eyni zamanda istər Cənubi Qafqaz regionunda, istərsə də Avrasiyada yeni geostrateji reallıqların təşəkkülünə səbəb olub. Asiyadan Avropaya doğru uzanan geniş coğrafiyada mühüm geostrateji məntəqələrdən olan Cənubi Qafqaz bölgəsində yeni reallıqlar fonunda saatlar Bakı vaxtı ilə qurulur. Yəni şərtləri qalib və üstün tərəf olan Azərbaycan diktə edir.

Dünya ölkələri ilə bərabərhüquqlu və qarşılıqlı münasibətlərin qurulması, beynəlxalq təşkilatlarla səmərəli əlaqələrin yaradılması, yeni tərəfdaşların tapılması və yüksək səviyyəli əməkdaşlığın həyata keçirilməsi, mehriban qonşuluq siyasətinin formalaşdırılması, beynəlxalq ədalətin təmin olunması Azərbaycanın yürütdüyü xarici siyasətin əsas komponentləridir. Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilən, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik edən və onun beynəlxalq miqyasda siyasi nüfuzunun artırılmasında əvəzsiz xidmətlər göstərən dövlətdir. Azərbaycan Avropa İttifaqının 10 üzv ölkəsi ilə strateji tərəfdaşlıq əlaqələri qurub. Azərbaycan regionda mehriban qonşuluq siyasətini təşviq etməklə Cənubi Qafqazın sülh məkanına çevrilməsinə töhfə verir.

2025-ci ilin ən böyük nailiyyətlərindən biri – 8 avqust tarixdə Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan liderləri tərəfindən Birgə Bəyannamənin imzalanması, sülh müqaviləsinin paraflanmasıdır. Sülh müqaviləsinin təşəbbüskarı isə Azərbaycan Prezidenti İlham Əliyevdir. Dövlət başçısı müharibədə qalib gəldiyi kimi, sülhü də qazanır. Regionda ümumi vəziyyətin köklü şəkildə dəyişməsi və münaqişənin bitməsi bu istiqamətdə görülən işlərin məntiqi davamıdır.

Vaşinqton Sammitinin nailiyyətlərindən biri Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” (TRIPP) layihəsidir. Orta Dəhlizin növbəti mühüm seqmentinə çevriləcək TRIPP Asiyanı Avropa ilə birləşdirən, beynəlxalq yükdaşımalarının tranzit imkanlarının genişlənməsinə, region ölkələrinin rifahına və onların qlobal təchizat zəncirlərinə inteqrasiyasına xidmət edən vacib nəqliyyat əlaqəsi olacaqdır. TRIPP, eyni zamanda gələcəkdə enerji resurslarının daşınması, elektrik enerjisinin, xüsusilə də bərpa olunan enerjinin ixracı, o cümlədən fiber-optik xətlərin çəkilməsi üçün də geniş imkanlar təqdim edərək regionun beynəlxalq ticarət və rəqəmsal kommunikasiya habına çevrilməsinə təkan verəcək. Azərbaycan bu marşrutun yaxın zamanlarda reallaşması üçün bütün səylərini səfərbər edib.

Cənab Prezidentin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiqlənən “Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində dayanıqlı məskunlaşma, infrastrukturun bərpası, təhlükəsiz yaşayış, ekoloji təmiz texnologiyalar və “yaşıl inkişaf” prinsiplərinin tətbiqi əsas məqsəd kimi müəyyən edilib. Artıq uğurla icra edilən “Böyük Qayıdış” proqramı ilə bağlı Prezident cənab İlham Əliyev qeyd edir ki, ***“Bu gün “Böyük Qayıdış” proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır. Bütün bu tarixi nailiyyətlərlə bağlı bir daha əziz xalqımı təbrik edirəm. Biz bu beş ili qürur hissi ilə yaşamışıq. Əminəm ki, bundan sonra Azərbaycan xalqı qəhrəman, müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaqdır. Biz – bu torpaqların sahibləri Qarabağa, Şərqi Zəngəzura qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaqdır”.***

Strateji planlaşdırma, nəhəng icra və əlaqələndirmə prosesi, minatəmizləmə, infrastrukturun bərpası və artıq insanların geri qaytarılması – bütün bunlar qısa zamanda görülən böyük işlərdir. Bizim yaşadığımız dövrdə dünyanın heç bir yerində darmadağın edilmiş geniş bir ərazinin yenidən qurulduğu ikinci belə məkan yoxdur. Bu, görünməmiş haldır və biz bunun şahidi oluruq.

Tarix cənab Prezidenti 2020-ci il Qarabağ müharibəsində qalib gəlmiş Lider kimi xatırlayacaq. Həmin qələbə bir çox cəhətdən Onun Prezidentliyinin dəst-xətini müəyyənləşdirdiyi kimi, həm də ölkəmizə və Cənubi Qafqaz regionuna sülh gətirən Lider kimi xatırladacaq. Bütün bunlar bacarıqlı diplomatın, dahi strateqin, qüdrətli sərkərdənin diplomatiya, siyasət və hərb meydanında qazandığı qələbənin təzahürüdür. Qarşıda isə ölkə başçısının rəhbərliyi ilə bütün ərazilərində suverenliyini bərpa etmiş Azərbaycanı daha parlaq bir gələcək gözləyir. Cənab Prezidentin öz sözləri ilə desək: ***“Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və “Qurani-Kərim”ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi”.***

Prezident cənab İlham Əliyevin müstəqil və milli maraqlara əsaslanan xarici siyasəti Azərbaycanın regional liderə – bölgədə güc mərkəzinə, dünya siyasətində qüdrətli və nüfuzlu milli subyektə çevrilməsinə səbəb olub. O, dünyanın ən çətin və mürəkkəb münaqişələrindən birini təkbaşına həll edərək adını tarixə Müzəffər Ali Baş Komandan, Qalib Prezident kimi yazdıran dövlət xadimi, yenilməz sərkərdədir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin dünyanın ən nüfuzlu liderlərindən biri olaraq qəbul edilməsi onun qlobal fəaliyyətinin məntiqi nəticəsidir. Kim nə deyirsə desin, cənab İlham Əliyevin dünya liderlərindən biri olması artıq qəbul edilmişdir. O bunu qəbul etdirdi.

Azərbaycan xalqı gücünü öz liderindən alır. Lider isə xalqına arxalanır, bunu dəfələrlə bəyan edən ölkə başçısı bir gerçəyi də dilə gətirir: ***“Mən hesab edirəm ki, gücümüzün əsas mənbəyi haqlı olmağımızdır. Çünki biz haqlıyıq və istənilən auditoriyada, istənilən tədbirdə öz haqlı olmağımızı sübut etmək üçün kifayət qədər əsaslarımız var”.***

✍ **Məmməd BABAYEV**

**Prezident İlham ƏLİYEV:**

***“Əgər 2020-ci il noyabrın 10-da müharibə dayanmasaydı, bəlkə də minlərlə şəhid verməli olacaqdıq. O cümlədən bax burada, bu dağlarda, Ağdərə dağlarında, Kəlbəcər dağlarında, Laçın dağlarında, Ağdamın minalanmış zolaqlarında minlərlə şəhid verə bilərdik. Biz onları qoruduq, onları qurban vermədik. Ancaq bilirdik ki, gün gələcək və biz bütün Qarabağı qaytaracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik, mənfur düşməni torpaqlarımızdan qovacağıq və tam Qələbə qazanacağıq. Bu torpaqların sahibləri bizik, biz gəlmişik və biz qurub-yaradırıq.”***

# Bu torpaqların sahibləri bizik



***Biz gəlmişik və biz qurub-yaradırıq***

Onlar evlərindən çıxanda ən əziz əşyalarını belə götürməyə macal tapmamışdılar. Əli-ayağı yalın, gözüyaşlı tərk etmişdilər Ağdərəni. Öz doğmalarının məzarını, isti ocaqlarını tərk edəndə heç kim bilmirdi ki, bu gedişin qayıdışı nə vaxt baş tutacaq. İllərlə qışda soyuq, yayda isti olan vaqonlarda, çadırlarda yaşayan bir milyona yaxın məcburi köçkün olan insanlardan, sadəcə, bir neçəsi idi ağdərəlilər. Onlar dözdü, yaşadı və ümidlə gözlədilər öz yurdlarına dönməyi. Dövlət başçısına, ordusuna güvənib hər çətinliyə dövlətin dəstəyi ilə sinə gərdilər. Və nəhayət, ümidlər bir payız səhəri gerçəyə döndü. Şanlı Vətən savaşı başlayan gün torpaqlarımızın azad olunmağı xəbəri onların da ürəyində bir sevinc, bir fərəh yaratdı. Kiminin öz yurdundakı gözəl günləri gəldi ağlına, kimisi illərdir, sandıqda saxladığı açarlara sevinclə baxıb artıq qıfılların açılan vaxtı çatıb dedi. Və budur, həmin gün gəlib, insanlar öz ocaqlarının qapısını fərəhlə açıb evinə yenidən qədəm qoyur. Artıq beş ildir ki, Böyük Qayıdış başlayıb və insanlarımız öz isti ocağına geri dönməyin, əbədi qayıdışın sevincini yaşayır. İşğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri əbədi qayıdışın, yeni işıqlı günlərin başlanğıcına çevrilib.



Yollar, hər bir şəraitlə təmin olunmuş mənzillər, təhsil və səhiyyə ocaqları bu torpaqlara qayıdan hər sakinin yaxşı yaşaması üçün şərait yaradıb. Yaradılan şərait isə insanların öz doğma yurdunda yaxşı yaşamasına imkan verir. 73 min insan bu ərazilərdə yaşayır. 2026-cı ilin ilk günlərində Ağdərə rayonunun Çapar, Heyvalı, Çıldıran və Aşağı Oratağ kəndlərinin sakinləri də öz ocağına qayıtmağın və dövlət başçısı ilə görüşməyin sevincini yaşadılar.

Dövlətimizin başçısı bu kəndlərin hər birində görülmüş işlərlə tanış olub, sakinlərin mənzilində onlarla görüşüb. Burada onların məskunlaşması üçün bütün zəruri şəraitin yaradıldığını bildirib. Prezident İlham Əliyev Ağdərənin Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşü zamanı deyib: ***“Bütün bu kəndlərdə olmuşam: Çapar, Heyvalı, Çıldıran və Aşağı Oratağ kəndləri. Evlər gözəl təmir olunub, bərpa edilib. Son iki il ərzində biz işğaldan azad edilmiş Ağdərə rayonunun bütün qəsəbələrində, kəndlərində monitorinq aparmışıq. Birinci mərhələdə bərpa olunan kəndləri müəyyən etmişik və artıq Ağdərə rayonunun doqquz kəndinə keçmiş köçkünlər qayıtmışlar”.***

Dövlət Proqramına əsasən işğaldan azad edilmiş şəhərlərimizin Baş planları hazırlanaraq böyük layihələr həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə şəhərinin Baş planı ilə də tanış olub. Qeyd edək ki, Baş plana əsasən şəhərin məskunlaşma ərazisi 444 hektardan 522 hektara çatdırılacaq. Baş planın konseptual sxeminə şəhər mərkəzi, fərdi və azsıxlıqlı yaşayış sahələri, çoxfunksiyalı və ictimai işgüzar zonalar daxildir. Bundan başqa, şəhərdə terras parkı, çayətrafı bulvar, aqroturizm, sənaye və logistika zonalarının yaradılması planlaşdırılır. Baş planla yanaşı, Ağdərə şəhərinin birinci mərhələdə yenidən qurulacaq ərazisi üzrə müfəssəl həllər də hazırlanıb. Şəhərin mənzil fondunun 420 min kvadratmetr olması, həmçinin 80 çarpayılıq xəstəxananın, 2520 şagird yerlik 5 məktəbin, 840 yerlik 5 uşaq bağçasının və peşə məktəbinin inşası planlaşdırılır. Birinci mərhələdə sahəsi 104 hektar olan şəhər mərkəzinin inkişaf etdirilməsi nəzərdə tutulur. 2030-cu ilədək şəhərdə 3590 nəfərin məskunlaşması mümkün olacaq. Burada yol və küçələrin uzunluğu 46,8 kilometr, velosiped zolaqlarının uzunluğu isə 10 kilometr təşkil edəcək. Layihə çərçivəsində ictimai və yaşayış binalarının memarlıq həlləri də işlənilib.

***Ocağımızda öz işığımız yanır***

Ölkəmizin bütün ərazilərində olduğu kimi, işğaldan azad edilən torpaqlarımızda elektrik enerjisi istehsalı sahəsində də bir çox işlər görülüb və görülməkdədir. Belə ki, Vətən savaşında qazanılan zəfərdən sonrakı beş il ərzində Qarabağda və Şərqi Zəngəzurda dövlət vəsaiti hesabına 40-a yaxın kiçik su elektrik stansiyası inşa edilib. Bu gün onların ümumi potensialı 300 meqavatdan çoxdur. Yanvarın 13-də Ağdərə rayonunun Qozlukörpü kəndində səfərdə olan dövlət başçısı “Qozlukörpü” Su Elektrik Stansiyasının açılışında iştirak edib. Prezident İlham Əliyevin Qarabağın və Şərqi Zəngəzurun “yaşıl enerji zonası”na çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq Ağdərə rayonunda regionun ən iri su arteriyası olan Tərtərçay üzərində inşa edilmiş “Qozlukörpü” Su Elektrik Stansiyası 14,7 meqavat gücündədir.

Sərt relyef, iqlim şəraiti və çətin logistika səbəbindən tikinti prosesi digər bölgələrlə müqayisədə daha çox vaxt tələb etməsinə baxmayaraq, layihə qısa müddətdə uğurla icra olunub. Dəniz səviyyəsindən 955 metr yüksəklikdə müasir baş suqəbuledici qurğu yaradılıb. Tərtərçayın hidroenerji potensialının 30 SES olması müəyyən edilib. Hazırda 22 SES “AzərEnerji” ASC tərəfindən istismardadır, 5 SES-in tikintisi icra olunur, 3 SES-in inşası nəzərdə tutulur. Qeyd edək ki, Tərtərçay tamamilə ölkə daxilində formalaşır. Burada il ərzində orta hesabla 43 milyon kilovat-saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur ki, bununla da 9,5 milyon kubmetr təbii qaza qənaət ediləcək, 18 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq.

***Dağ-mədən sənayesi üzrə işə başlayan ilk layihə***

Qarabağın işğaldan azad edilməsi həm də təbii sərvətlərimizə sahibliyimizi təmin etdi. İşğaldan azad olunan torpaqlarda – Kəlbəcər, Laçın, Zəngilan və Tərtərdə 160 müxtəlif qiymətli metal: qızıl, gümüş, civə, mis, qurğuşun, daş kömür, rəngli, dekorativ daşlar və digər yataqlar mövcuddur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Canyataq kəndində “Dəmirli” Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub. “Dəmirli” Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dağ-mədən sənayesi üzrə işə başlayan ilk layihədir. Mis flotasiya zavodunda “Dəmirli” mədənindən çıxarılan filiz emal ediləcək və son məhsul – mis konsentratı istehsal olunacaq. Mis flotasiya zavodunun illik istehsal gücü 5,6 milyon ton filiz emalıdır. Bu layihənin icrası Azərbaycanda qeyri-neft sektorunun dayanıqlı inkişafının təmin olunması, ölkəmizin ixrac qabiliyyətinin artması, işğaldan azad edilmiş ərazilərdə təbii ehtiyatların səmərəli və qanuni istifadəsinin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir.

***Azərbaycan tam və mütləq qələbə qazanıb***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunda Xüsusi Əməliyyat Mərkəzinin təməlini qoyub. Bu mərkəzin yaradılmasında məqsəd xüsusi təyinatlı bölmələrin müxtəlif ərazi, relyef və hava şəraitində hazırlıqlarının təmin edilməsi, həmçinin beynəlxalq hərbi əməkdaşlıq sazişləri əsasında tədbirlərin, o cümlədən təlimlərin, kursların keçirilməsidir. Mərkəzin geniş ərazisində çoxsaylı şəxsi heyətin iştirakı ilə təlim və məşqlərin keçirilməsi mümkün olacaq. Burada təlim sahələri, o cümlədən atıcı və iriçaplı silahların atış, pilotsuz uçuş aparatlarının, o cümlədən zərbə dronlarının, müxtəlif simulyasiya, xüsusi əməliyyatların, sürücülük, üzgüçülük hazırlıqlarının məşq sahələri yaradılacaq. Həmin gün Ağdərə şəhərində Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan yaşayış binaları da istismara verilib.

Dövlətimizin başçısının da dediyi kimi, bu torpaqların sahibi bizlərik. Bu Vətənin hər qarışı “Mən azərbaycanlıyam”, – deyir, “Mən türk Vətəniyəm”, – deyə səslənir. Hansısa təcavüzkar qüvvə kimdənsə güc alıb torpağımızı işğal edə bildi, amma bu torpağı əbədiyyən əlində saxlaya bilmədi. Biz heç vaxt işğalla barışa bilməzdik. Bir həmlədə doğma Qarabağımızı düşmənin qanlı caynağından qoparıb aldıq. Artıq beş ildir ki, bu torpaqlar gülüstana dönüb zəhmətkeş azərbaycanlıların əllərində. Biz sübut edirik ki, torpaq öz sahibinin əlində olanda, həqiqətən də, cənnətə dönür.

**Ramiyə ƏKBƏROVA**

# "2025-ci ildə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş hesabat tədbiri keçirilib



Yanvarın 12-də "2025-ci ildə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş hesabat tədbiri keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 13-cü ərazi sektorunun müdiri Çingiz Əliyev, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin deputatları, şəhər rəhbərliyi, idarə, müəssisə və xidmət sahələrinin rəhbərləri, eləcə də ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Əvvəlcə İcra Hakimiyyəti binasının foyesində təşkil olunmuş 2025-ci ildə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı ilə bağlı sərgi ilə tanışlıq olub.

Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hesabat məruzəsi ilə çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev qeyd edib ki, ötən il Naxçıvan şəhərində ümumi məhsul buraxılışı 2024-cü illə müqayisədə 9,9 faiz artaraq 690 milyon 428 min 700 manat dəyərində olub. Əsas kapitala yönədilmiş vəsait isə 41,7 faiz artaraq 228 milyon 271 min 300 manat, ondan tikinti-quraşdırma işlərinə qoyulan vəsait 14,7 faiz artımla 149 milyon 443 min 400 manat təşkil edib. 2025-ci ildə sənaye məhsulu 14,3 faiz artımla 240 milyon 250 min 700 manat olub. Qeyd olunan dövrdə rabitə və informasiya xidmətləri 4,3 faiz, pərakəndə ticarət dövriyyəsi 4,1 faiz, ictimai iaşə dövriyyəsi 2,1 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər 0,3 faiz artıb.





İcra Hakimiyyətinin başçısı həmçinin diqqətə çatdırıb ki, ötən il 14 ədəd yaradılan və 4 ədəd fəaliyyətinin genişləndirməsi başa çatan istehsal və xidmət sahəsi olmuşdur. 14 ədəd yaradılması və 6 ədəd fəaliyyətinin genişləndirilməsi davam etdirilən istehsal və xidmət sahəsi olmuşdur. Həmçinin yanvar-sentyabr aylarında Naxçıvan şəhərində, ümumilikdə, 589 yeni iş yeri açılıb. Bir işçiyə düşən ortaaylıq nominal əməkhaqqı 886,2 manat təşkil edib.

Cabbar Musayev sənaye sektoru, kənd təsərrüfatı, turizm və digər sahələrdə görülmüş işlər barədə də geniş məlumat verib, qarşıda duran vəzifələrdən bəhs edib.

Naxçıvan Şəhər Maliyyə İdarəsinin rəisi vəzifələrini müvəqqəti icra edən Məmmədnağı Əkbərov Naxçıvan şəhərinin yerli büdcəsinin 2025-ci il üzrə icra nəticələri və 2026-cı il üçün gəlir və xərcləri barədə məlumat verib. Bildirib ki, 2025-ci il ərzində Naxçıvan şəhər yerli büdcəsinin gəlirləri 50 milyon manat plana qarşı 63 milyon 149 min 640 manat, yəni 126,3 faiz icra olunub. Bunun müqabilində büdcəyə 13 milyon 149 min 640 manat nəzərdə tutulandan artıq vəsait daxil olub. Yerli büdcənin xərcləri isə 2025-ci il üzrə təsdiq olunmuş 18 milyon 386 min 500 manata qarşı ötən il ərzində 14 milyon 479 min 670 manat təşkil edib. Nəticədə, yerli büdcənin xərc istiqaməti 78,75 faiz icra edilib. 2026-cı ildə isə Naxçıvan şəhər yerli büdcəsinin gəlirləri 62 milyon manat, yerli xərcləri 17 milyon 499 min 500 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi isə 44 milyon 500 min 500 manat olaraq təsdiq edilib.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tədbirdə çıxış edərək bildirib ki, ötən il şanlı qələbəmizin 5-ci, Konstitusiyamızın 30-cu ildönümündə ölkəmizdə "Konstitusiya və Suverenlik İli" kimi qeyd edilməsi ilə yanaşı, Azərbaycan tarixində başqa bir parlaq tarix kimi – 8 avqust möhtərəm cənab Prezidentin qətiyyətli iradəsi nəticəsində 30 illik Qarabağ münaqişəsinə son qoyulması, Cənubi Qafqaza sülhün gəlməsi və növbəti tarixi ədalətsizliyə cənab Prezidentin imzası ilə sonuncu nöqtənin qoyulduğu tarix kimi yazıldı. Bu tarixi əlamətdar hadisə muxtar respublikanın taleyində əbədi iz qoydu, eləcə də region xalqlarının həyatında mühüm dönüş məqamına çevrildi. Ümummilli Liderin formalaşdırdığı dövlətçilik və sosial-iqtisadi siyasət yanaşmaları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin idarəçilik fəlsəfəsinin əsasını təşkil edir, qəbul olunan bütün strateji qərarlarda və islahat zərflərində öz əksini tapır. Möhtərəm cənab Prezidentin həyata keçirdiyi dövlət siyasətinin mərkəzində vətəndaş amili dayanır və həyata keçirilən islahatlar, proqramlar və tədbirlər məhz əhalinin rifahının yüksəldilməsinə, sosial ədalətin təmin olunmasına və ictimai iştirakçılığın genişləndirilməsinə xidmət edir. Cənab Prezidentin ötən ilin 12 noyabr tarixində mətbuat önündə keçirdiyi qəbulda, eləcə də cari ilin 5 yanvar tarixində yerli televiziya kanallarına verdiyi müsahibədə səsləndirdiyi fikirlər bir daha göstərir ki, Azərbaycan vətəndaşının firavan həyatı dövlətin ən əsas strateji məqsədidir.

Ceyhun Cəlilov diqqətə çatdırıb ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində dayanıqlı inkişafın təmin olunması, məşğulluq imkanlarının artırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi və ətraf mühitin mühafizəsinin təmin olunması nəzərdə tutulmuşdur. Qeyd olunan məqsədlərə nail olmaq üçün cari ilin əvvəlindən etibarən 10 il müddətində qüvvədə olmaqla muxtar respublikanın müvafiq sahibkarlarına vergi və gömrük rüsumundan azadolma və sosial-sığorta ödənişlərinin isə subsidiyalaşmasına başlanıb. Naxçıvan Sənaye Parkının yaradılması, yeni İES-in qurulması, paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması, Naxçıvan şəhərində ictimai nəqliyyatın yaxşılaşdırılması kimi sosial-iqtisadi, Möminə xatun türbəsinin bərpası, memar Əcəminin abidəsinin ucaldılmasına dair mədəni tədbirlərin görülməsinə dair müvafiq sərəncamlar cənab Prezidentin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına, eləcə də mədəni irsin qorunmasına qayğısının ifadə edir.

Səlahiyyətli nümayəndə qeyd edib ki, növbəti dövrdə muxtar respublikanın, eləcə də Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafının əsas prioritetləri cənab Prezidentin müəyyən etdiyi istiqamətlər üzrə – vətəndaş məmnunluğunun artırılması məqsədilə əhaliyə göstərilən dövlət xidmətinin keyfiyyətinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və iqtisadi fəallığın artırılması məqsədilə sahibkarlara daha əlverişli şəraitin yaradılması, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində regionların simasının müasirləşdirilməsi məqsədilə, eləcə də sakinlərin həyat şəraitinin daha da yaxşılaşdırılması üçün abadlıq və quruculuq işlərinin, yol infrastrukrunun yenilənməsi layihələrinin davam etdirilməsi, şəhərlərin Baş planlarının hazırlanması işlərinin icra edilməsi, eləcə də möhtərəm cənab Prezidentin memarı olduğu, qlobal müstəvidə diqqət mərkəzində olan Zəngəzur dəhlizinin muxtar respublika hissəsinə aid infrastruktur quruculuğu işlərinin təşkilində yaxından iştirak etmək və müvafiq icra işlərinin təşkilini təmin etməkdən ibarətdir.

Sonda 2025-ci ildə Naxçıvan şəhərinin sosial-iqtisadi və mədəni inkişafı, ətraf mühitin qorunması sahəsində görülmüş işlərlə bağlı videoçarx izlənilib.

## N.X.Qurbanovun "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Nihad Xalid oğlu Qurbanov "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini təyin edilsin.
2. "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyətinə sədr təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini Nihad Xalid oğlu Qurbanova həvalə edilsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 15 yanvar 2026-cı il*

## R.Ə.Sadıxovun "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Əbülfəz oğlu Sadıxov "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 15 yanvar 2026-cı il*

# Şərurda ötən ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr müzakirə edilib



Yanvarın 13-də “2025-ci ildə Şərur rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr”ə həsr olunmuş hesabat tədbiri keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 13-cü ərazi sektorunun müdiri Çingiz Əliyev, rayon İcra Hakimiyyətinin başçısının müavinləri, rayonun idarə və müəssisə, təşkilat rəhbərləri Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Şərur Rayon Mədəniyyət Sarayında davam edən tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov rayonun 2025-ci ili uğurla başa vurduğunu bildirərək qeyd edib ki, 2025-ci ildə rayonun yerli büdcəsinin gəlirləri 8 milyon 980 min manat proqnoza qarşı 9 milyon 377 min 30 manat, xərcləri isə 7 milyon 595 min manat proqnoza qarşı 5 milyon 970 min 514 manat icra edilib. Vergi ödənişləri ötən il 9 milyon manat proqnoza qarşı 9 milyon 333 min 229 manat, Dövlət Sosial Müdafiə Fondu ödənişləri 12 milyon 171 min 576 manat, işsizlikdən sığorta ödənişləri 462 min 970 manat, icbari tibbi sığorta ödənişləri isə 2 milyon 41 min 86 manat icra olunub.

Sahibkarlığın inkişafı istiqamətində görülən işlər barədə məlumat verən Kamal Cəfərov vurğulayıb ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası istiqamətində tətbiq olunan güzəştlər Şərurda özəl sektorun inkişafına təkan verib. Hazırda rayon üzrə, ümumilikdə, dövlət qeydiyyatına alınmış 1000-dən artıq sahibkarlıq subyekti fəaliyyət göstərir. Ötən il Sahibkarlığın İnkişafı Fondu vasitəsilə, ümumilikdə, 49 layihəyə 1 milyon 482 min 500 manat dəyərində güzəştli kredit ayrılıb. Onlardan 44-ü kənd təsərrüfatı, 2-si sənaye istehsalı, 3-ü isə xidmət sektorunun inkişafına yönəldilib. Dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin inkişafına və genişləndirilməsinə göstərilən dəstək nəticəsində 2025-ci ildə Şərur rayonunda 27 yeni iş yeri fəaliyyətə başlayıb. 2025-ci ildə rayon üzrə ümumi məhsul buraxılışının həcmi 304 milyon manatı ötüb. Belə ki, kənd təsərrüfatında 159 milyon, ticarət, nəqliyyat və anbar təsərrüfatında 97 milyon, sənayedə 25 milyon, tikintidə 20 milyon, informasiya və rabitə sahəsində isə 819 min manat qeydə alınıb. Xüsusilə 2024-cü illə müqayisədə əsas kapitala yönəldilmiş vəsaitlərdə 12,6 faiz, kənd təsərrüfatı-bitkiçilik istehsalında 0,9 faiz, pərakəndə ticarət dövriyyəsində 3,9 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərdə 0,4 faiz, yük daşınmalarında 1,1 faiz, sərnişin daşınmalarında isə 1,2 faiz artım müşahidə olunub.





İcra Hakimiyyətinin başçısı dövlət satınalmaları, əhalinin sosial müdafiəsi və məşğulluğu, təhsil, səhiyyə, ekoloji, mədəniyyət və digər sahələr üzrə görülmüş işlər, investisiya vəsaiti hesabına və Dövlət Proqramı çərçivəsində icra olunan layihələr barədə ətraflı məlumat verib, 2026-cı ildə icrası nəzərdə tutulan işlərdən bəhs edib.

Yeni Azərbaycan Partiyasının Şərur Rayon Təşkilatının sədri Əmir Babayev və 2 saylı Ərazi Vergilər İdarəsinin rəisi Rəfail Əliyev müvafiq sahələr üzrə ötən ilin yekunları barədə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxışında Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibəsində səsləndirdiyi fikirləri diqqətə çatdıraraq qeyd edib ki, ölkədə həyata keçirilən dövlət siyasəti insan amilinə əsaslanır və vətəndaşların sosial rifahının yüksəldilməsi strateji məqsəd kimi daim diqqət mərkəzində saxlanılır.

Dövlət başçısı son illər əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl islahatlardan, əməkhaqqıları, pensiyalar və sosial müavinətlərin mütəmadi şəkildə artırılmasından, sosial paketlərin əhatə dairəsinin genişləndirilməsindən bəhs edib.

Prezidentin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunmuş müşavirədə verilən tapşırıq və tövsiyələrdən bəhs edən Samir Seyidəhmədli vurğulayıb ki, Naxçıvan Muxtar Respublikasındakı mövcud vəziyyət nəzərə alınaraq aparılmış müzakirələrin nəticəsi olaraq problemlərin kompleks və uzunmüddətli həllinə yönəlmiş tədbirlərin ilkin layihəsi artıq hazırlanıb. Qarşıdakı dövrdə regionlarda icra olunan layihələrə məsuliyyətlə yanaşılması, mərkəzi və yerli icra strukturları arasında əlaqələndirmənin gücləndirilməsi, dövlət başçısının müəyyən etdiyi strateji xəttə uyğun olaraq daha çevik, nəticəyönümlü idarəetmənin təmin edilməsi zəruri və prioritet vəzifələr kimi müəyyənləşdirilir.

Səlahiyyətli nümayəndənin müavini qeyd edib ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası çərçivəsində iqtisadi fəallığın stimullaşdırılması və sahibkarlıq mühitinin yaxşılaşdırılması məqsədilə cari ilin əvvəlindən etibarən 10 il müddətinə muxtar respublikanın müvafiq sahibkarlıq subyektləri üçün vergi və gömrük rüsumlarından azadolmaların tətbiqinə, habelə sosial sığorta ödənişlərinin subsidiyalaşdırılmasına başlanılıb. Bu mexanizmlər regionda investisiya cəlbediciliyinin artırılmasına və yeni iş yerlərinin yaradılmasına xidmət edir. Eyni zamanda Dövlət Proqramından irəli gələn vəzifələrə uyğun olaraq Naxçıvan Sənaye Parkının yaradılması, yeni istilik elektrik stansiyasının inşası, elektrik paylayıcı şəbəkəsinin yenidən qurulması, Naxçıvan şəhərində ictimai nəqliyyat sisteminin təkmilləşdirilməsi kimi mühüm sosial-iqtisadi layihələr icra olunur. Bu baxımdan, Dövlət Proqramının uğurla icrası məqsədilə müvafiq dövlət qurumları tərəfindən konkret tədbirlərin planlaşdırılması, icra mexanizmlərinin gücləndirilməsi və nəticəyönümlü fəaliyyətin təmin edilməsi zəruridir.



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Ərazi-təşkilat məsələləri şöbəsinin 13-cü ərazi sektorunun müdiri Çingiz Əliyev tədbirdə çıxış edərək Ümummilli Lider Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsinin uğurlu nəticələrindən bəhs edib. Bildirib ki, son 5 ildə beynəlxalq aləmdə günü-gündən artan nüfuz, aparılan çoxşaxəli islahatlar, yeni infrastruktur layihələrin həyata keçirilməsi Azərbaycanın tarixi nailiyyətləridir. 2025-ci ildə Azərbaycanın valyuta ehtiyatları 80 milyard dollar, xarici borcu isə aşağı düşərək ümumi daxili məhsullara nisbətdə 6,3 faiz təşkil edib. Valyuta ehtiyatları xarici borcu 16 dəfə üstələyib.

Çingiz Əliyev qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının inkişafı üzrə həyata keçirilən layihələr regionun strateji əhəmiyyətini artırır və onu beynəlxalq nəqliyyat logistika şəbəkəsinin vacib həlqəsinə çevirir. Zəngəzur dəhlizinin reallaşdırılması çərçivəsində yeni nəqliyyat xətlərinin inşası həm Türkiyə və Avropaya, həm də Yaxın Şərqə çıxışı təmin edəcəkdir. Zəngəzur dəhlizinin açılması ilə Şimal-Cənub və Orta Dəhliz marşrutlarının mühüm bir qolu formalaşacaq. Eyni zamanda Qars-Naxçıvan dəmir yolunun Türkiyə dəmir yolu şəbəkəsinə inteqrasiyası və İran üzərindən alternativ bağlantının yaradılması Naxçıvanın ölkənin əsas hissəsi ilə dayanıqlı əlaqəsini təmin edəcək. Paralel olaraq hazırlanan Baş plan çərçivəsində “yaşıl enerji”, kənd təsərrüfatı, suvarma və turizm sahələrinin inkişafı Naxçıvanı sürətli və balanslı regional inkişaf modelinə çevirəcək.

# Sədərəkdə ötən ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair hesabat tədbiri keçirilib

Yanvarın 13-də “2025-ci ildə Sədərək rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr”ə həsr olunmuş hesabat tədbiri keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Naim Cahidzadə, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 13-cü ərazi sektorunun müdiri Çingiz Əliyev, YAP Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları və hüquq-mühafizə orqanlarının rəhbərləri Heydərabad qəsəbəsində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Sədərək Rayon Mədəniyyət Sarayında davam edən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Naim Cahidzadə çıxışında ötən ilin sosial-iqtisadi uğurlarından bəhs edib. Bildirib ki, 2025-ci ildə Sədərəkdə 1 yanacaqdoldurma məntəqəsi və 1 iaşə xidməti yaradılıb, yeni ictimai obyektlər və digər iş yerləri istifadəyə verilib, 3 uşaq-əyləncə qurğusu və 1 sadə tipli açıq hava idman qurğuları quraşdırılıb. Həmçinin Şəhidlər Memorial Abidə Kompleksinin layihələndirilməsinə başlanılıb, Dəmirçi kəndində magistral və kənddaxili yolların işıqlandırılması layihəsi hazırlanıb.



İcra Hakimiyyətinin başçısı vurğulayıb ki, iqtisadiyyatın əsas inkişaf göstəricisi sayılan ümumi məhsul buraxılışı 2024-cü illə müqayisədə 7,6 faiz artaraq 35 milyon 892 min manat olub. Hesabat dövründə sənaye məhsulu 33,6 faiz, əsas kapitala yönəldilən vəsaitlərin dəyəri 38,1 faiz, pərakəndə ticarət dövriyyəsi 4 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər 0,1 faiz artıb. Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi və əlverişli biznes mühitinin yaradılması rayonda istehsal potensialını və məşğulluq səviyyəsini yüksəldib. Ötən il sənaye məhsulunun və sənaye xarakterli xidmətlərin dəyəri 9 milyon 461 min 900 manat olub ki, bunun da böyük hissəsi qeyri-dövlət sektorunun payına düşür. 2025-ci ilin məhsulu üçün Sədərək rayonunda 2 min 643 hektardan artıq sahədə əkin aparılıb.

Naim Cahidzadə ötən il rayonda ətraf mühitin mühafizəsi, rabitə və yeni texnologiyaların tətbiqi, elektrik enerjisində keyfiyyətin artırılması, təbii qaz təchizatı sisteminin müasirləşdirilməsi, təhsil, səhiyyə, sosial müdafiə, idman və digər sahələrdə görülən işləri diqqətə çatdırıb, qarşıda duran vəzifələrdən danışıb.

Sədərək Rayon Maliyyə Şöbəsinin müdiri Məhərrəm Qədimov 2025-ci ildə yerli büdcənin icrası, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Orxan Rzayev əhalinin sosial müdafiəsi sahəsində görülmüş işlər barədə məlumat veriblər.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli tədbirdə çıxış edərək bildirib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezidenti İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun şəkildə davam etdirilən inkişaf strategiyasının fəal iştirakçısıdır. O qeyd edib ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”ndan irəli gələn mühüm vəzifələrin, sosial-iqtisadi inkişaf, infrastrukturun yenilənməsi və Dövlət Proqramının vaxtında, keyfiyyətlə və nəticəyönümlü icrasını təmin etmək əsas məqsədlərdən biridir. Mövcud strateji sənədlər və inkişaf prioritetləri nəzərə alınmaqla bu gün Naxçıvanda su, enerji, yol-nəqliyyat, rabitə, kommunal təsərrüfat sahələrində dayanıqlı və müasir həllərin tətbiqi, əhalinin həyat keyfiyyətinin yüksəldilməsi istiqamətində işlər aparılır. Kənd təsərrüfatı, turizm və xidmət sahələrinin inkişafı, sahibkarlığın dəstəklənməsi və yeni iş yerlərinin yaradılması məqsədilə yerli potensialdan səmərəli istifadə olunması, investisiya təşviqlərinin genişləndirilməsi, müasir infrastrukturun formalaşdırılması və biznes subyektlərinin inkişafı üçün ardıcıl və nəticəyönümlü tədbirlər həyata keçirilir.

Samir Seyidəhmədli bildirib ki, bu gün məşğulluq sahəsində islahatların davam etdirilməsi, əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində əmək bazarının tələblərinə uyğun yeni iş yerlərinin yaradılması, aktiv məşğulluq proqramlarının genişləndirilməsi, peşə hazırlığı və ixtisasartırma tədbirlərinin gücləndirilməsi, eləcə də sosial müdafiə mexanizmlərinin daha ünvanlı və səmərəli şəkildə tətbiqi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Səlahiyyətli nümayəndənin müavini sonda əminliklə qeyd edib ki, dövlət başçısının müəyyən etdiyi strateji xəttə uyğun olaraq görülən işlər xalqımızın rifahının daha da yüksəlməsinə və Azərbaycanın uzunmüddətli tərəqqisinə möhkəm zəmin yaradacaqdır.

# Culfada 2025-ci ilin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib



Yanvarın 14-də "2025-ci ildə Culfa rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş hesabat tədbiri keçirilib.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini, başçının səlahiyyətlərini müvəqqəti icra edən Sara Hüseynova, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 13-cü ərazi sektorunun müdiri Çingiz Əliyev, Milli Məclisin deputatı Vüqar Rəhimzadə, YAP Culfa Rayon Təşkilatının sədri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Culfa Rayon Mədəniyyət



Sarayında davam edən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini, başçının səlahiyyətlərini müvəqqəti icra edən Sara Hüseynova hesabat məruzəsində bildirib ki, tikinti-quruculuq işləri əvvəlki illərdə olduğu kimi, 2025-ci ildə də diqqət mərkəzində saxlanılıb, Culfa şəhərində 132/110/35/10 Kvt-luq yarımstansiya və "Darıdağ" Arsenli Su Müalicəxanasının tikintisi davam etdirilib, Bənəniyar su anbarını Əlincə çayından qidalandıran 6550 metrlik "Sağ-sahil" kanalının yenidən qurulması işlərinə başlanılıb. Culfa şəhərində prospekt və küçələrdə, ümumilikdə, 8 yaşayış binasının istilik xətləri yenilənib, Yaycı kəndində 360 nəfərlik, Ərəfsə kəndində isə 200 nəfərlik Mərasim evi tikilib. Həmçinin 2025-ci il ərzində 3,3 km məsafədə Gal və Şurud kənddaxili yollarında əsaslı təmir işləri aparılıb, rayonun magistral yollarında, şəhərdaxili və kənddaxili yollarda, ümumilikdə, cari təmir-bərpa və quraşdırma işləri aparılıb.

Sara Hüseynova rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar sektorun təhlilini apararaq bildirib ki, ötən il kənd təsərrüfatı sahəsində məhsul istehsalı 2024-cü illə müqayisədə 1 milyon 653 min 900 manat artaraq 45 milyon 20 min 200 manat təşkil edib. Rayonda ekoloji cəhətdən müxtəlif növ təmiz ərzaq məhsulları yetişdirən 155 ailə təsərrüfatçısına lazımi dövlət dəstəyi göstərilib, onların istehsal etdiyi məhsulların Culfa və Naxçıvan şəhərlərindəki bazarlara çıxarılaraq satışının həyata keçirilməsinə şərait yaradılıb.

İcra Hakimiyyəti başçısının müavini nəqliyyat, fasiləsiz təbii qaz və elektrik enerjisi ilə təminat, rabitə, poçt, ekologiya, məşğulluq, sosial müdafiə, səhiyyə, təhsil, mədəniyyət, idman və digər sahələrdə görülən işləri də diqqətə çatdırıb, 2026-cı ildə qarşıda duran vəzifələrdən bəhs edib.

Culfa Rayon Statistika İdarəsinin rəisi Məhərrəm Məmmədov və Maliyyə Şöbəsinin müdiri Röyal Məmmədov müvafiq sahələr üzrə hesabatlar təqdim ediblər.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Vüqar Rəhimzadə çıxışında qeyd edib ki, 2025-ci il Azərbaycanın həyatında yaddaqalan illərdən biri kimi xarakterizə olunacaqdır. Azərbaycanın qalib ölkə kimi zəfər tarixinin 5 illiyini, eyni zamanda Konstitusiyasının qəbul olunmasının 30 illiyini mühüm tədbirlərlə qeyd etdi. Ötən il Culfa rayonunun timsalında Naxçıvan Muxtar Respublikasının həyatında da mühüm nailiyyətlərlə yadda qalıb. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" əsasında müasir yollar çəkilib, geniş infrastruktur layihələrinin icrasına başlanılıb. Ən başlıcası, Naxçıvanda qarşıdakı 10 il müddətində vergi güzəştlərinin tətbiqinə başlanılır. Naxçıvanın həyatında da müstəsna əhəmiyyəti olan Zəngəzur dəhlizi artıq reallaşır. Siyasi qərar var və artıq bu proseslərə başlanılıb. Bu təkcə Naxçıvan üçün deyil, həm də Azərbaycanın həyatında mühüm hadisələrdən biridir və Zəngəzur dəhlizinin açılışı ilə Naxçıvanda yeni bir iqtisadi dövr başlayacaq.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxışında qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, habelə sosial-iqtisadi tərəqqiyə nail olunması kimi taleyüklü məsələlərdə uğurla sınaqdan çıxıb. Bu siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün hədəflərin gerçəkləşməsinə, müstəqil Azərbaycanın gələcək tərəqqisinə, daha qüdrətli dövlətə çevrilməsinə, xalqımızın daha firavan həyata qovuşmasına mütləq əminlik yaradır.

Samir Seyidəhmədli vurğulayıb ki, ölkədə milli maraqlar, sosial ədalət və demokratiya kimi prinsiplərə əsasən milli və müasir idarəetmə modelinin qurulması istiqamətində ardıcıl islahatlar aparılır. Onların əsas qayəsini səmərəli və demokratik idarəçiliyin formalaşdırılması, dövlət orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin, çevikliyin artırılması, xidmətlərin daha keyfiyyətli, rahat və müasir innovasiyalarla həyata keçirilməsi və nəticə etibarilə, ölkə vətəndaşlarının rifah və məmnunluq səviyyəsinin təmin olunması təşkil edir. Prezident İlham Əliyev vətəndaş-məmur məsələsinə toxunarkən qeyd edib ki, dövlət məmurları daim insanlarla təmasda olmalı, bütün kəndlərdə camaatın qayğıları ilə yaşamalı, onları narahat edən problemləri məhz onların dilindən eşitməli və imkan daxilində bu problemləri həll etməlidir. Əgər hər bir kəndin problemi həll olunarsa, deməli, ölkədə insanları narahat edən ciddi problem qalmayacaq. Bu baxımdan, hər bir dövlət məmuru fəaliyyətini xalqın mənafeyinə xidmət üzərində qurmalı, vətəndaşla daim ünsiyyətdə olmalı, onların problemlərinə biganə qalmamalıdır.

Səlahiyyətli nümayəndənin müavini əminliklə ifadə edib ki, Prezident İlham Əliyevin müəyyən etdiyi strateji xəttə uyğun olaraq Naxçıvanda və bütövlükdə, ölkəmizdə həyata keçirilən tədbirlər Azərbaycanın daha güclü, daha firavan gələcəyini təmin edəcəkdir. Xüsusilə qeyd edib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illəri əhatə edən Dövlət Proqramı regionun sosial-iqtisadi inkişafının yeni mərhələsini müəyyənləşdirir. Proqramdan irəli gələn vəzifələrin icrası çərçivəsində iqtisadi fəallığın artırılması, sahibkarlığın dəstəklənməsi, məşğulluğun genişləndirilməsi və əhalinin rifahının yüksəldilməsi istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilir.

# Ordubadda ötən ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair hesabat tədbiri keçirilib





Yanvarın 14-də "2025-ci ildə Ordubad rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş hesabat tədbiri keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 13-cü ərazi sektorunun müdiri Çingiz Əliyev, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Vüqar Rəhimzadə, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri Ehtibar İsmayılov, Naxçıvan Muxtar Respublikası Ali Məclisində Ordubad rayonunu təmsil edən deputatlar, şəhid ailələri, qazilər, müharibə iştirakçıları, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, şəhər, qəsəbə, kənd inzibati ərazi dairəsi üzrə nümayəndələri, bələdiyyə sədrləri, eləcə də ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Ordubad şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək xatirəsini ehtiramla anıblar.

Ordubad Rayon Mədəniyyət Sarayında davam edən tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli tədbirdə çıxış edərək vurğulayıb ki, ölkəmizdə həyata keçirilən uğurlu siyasətin tərkib hissəsi olaraq Ordubad rayonunda da son illər, o cümlədən 2025-ci il ərzində sosial-iqtisadi inkişafın təmin edilməsi istiqamətində mühüm işlər görülüb. Xüsusilə Prezident İlham Əliyevin 2024-cü il 21 fevral tarixli "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında Sərəncamı da əsas götürülməklə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq 2025-ci ildə Ordubad şəhərinin tarixilik və müasirlik prinsiplərini özündə birləşdirən Baş planının hazırlanması istiqamətində mühüm addımlar atılıb. Dövlət Proqramına uyğun olaraq rayonun bir sıra avtomobil yollarında əsaslı təmir işləri aparılıb. 2025-ci ildə Ordubad şəhərindəki XVII əsr abidəsi olan Cümə məscidinin təmir və yenidənqurma işləri yekunlaşıb. Həmçinin XVIII əsrə aid olan Sərşəhər məscidinin və Ordubad mədrəsəsinin bərpası ilə əlaqədar layihələndirmə işləri başa çatıb. Ordubad şəhərində layihə-smeta sənədləri yekunlaşan Şəhidlər Xiyabanı Abidə Kompleksinin abadlaşdırılması nəzərdə tutulur. Hazırda Ordubad şəhərinin mərkəzindəki "Ərbabın iş yeri" tarixi binasında əsaslı təmir və bərpa işləri davam etdirilir.

Elektrik enerjisi və təbii qazla fasiləsiz təminat, poçt, rabitə və informasiya təminatı, avtomobil nəqliyyatı, məşğulluq, təhsil, səhiyyə, mədəniyyət, idman, ekoloji və digər sahələrdə görülən işlərdən də bəhs edən Rəcəb Rəhimli göstərdiyi diqqət və qayğıya görə rayon ictimaiyyəti adından ölkə başçısına dərin minnətdarlığını bildirib, görülən işlərdə əməyi olan hər kəsə təşəkkür edib, qarşıda duran vəzifələrdən danışıb.

Ordubad Rayon Maliyyə Şöbəsinin müdiri Yamin Mehbalıyev və Təhsil Şöbəsinin müdiri Samir Zeynalov tədbirdə çıxış edərək müvafiq sahələr üzrə görülən işlərdən bəhs ediblər.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə çıxışında əlamətdar və uğurlu nəticələri ilə 2025-ci ilin Azərbaycan tarixində dərin iz buraxdığını qeyd edib. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan mühüm iqtisadi nailiyyətlər, siyasi nüfuz qazanıb, iqtisadi imkanlarımız daha da genişlənib. Ötən il həm də Zəngəzur dəhlizi ilə bağlı məsələlərə yekun siyasi nöqtə qoyulub. Bu dəhliz açıldıqdan sonra Naxçıvanı daha böyük uğurlar gözləyir. 2025-ci il Ordubad rayonunun yaşayış məntəqələrində də bir çox yeniliklərə səbəb olub, müasir infrastruktur layihələri həyata keçirilib, müasir yollar çəkilib. Ümumiyyətlə, bütün işlər insan amilinə verilən böyük dəyərdir. Naxçıvanda kifayət qədər uğurlu işlər var və 2026-cı ildə də Azərbaycanın tarixində, Naxçıvanımızın və Ordubadın həyatında ən yaddaqalan illərdən biri olacaqdır.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək bildirib ki, bu gün ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf kursu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun şəkildə yaradıcı yanaşma və ardıcıl siyasət əsasında uğurla davam etdirilir, bunun nəticəsində ölkəmiz mühüm nailiyyətlər əldə edir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bu inkişaf strategiyasının fəal iştirakçısı olaraq qarşıdakı mərhələdə də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"ndan irəli gələn mühüm vəzifələrin icrasını təmin etməlidir. Sosial-iqtisadi inkişaf, infrastrukturun yenilənməsi və Dövlət Proqramının vaxtında, keyfiyyətlə və nəticəyönümlü icrasını təmin etmək əsas məqsədlərdən biridir.

# Akademik İsmayıl Hacıyev: Elə yaşamalısınız ki, dönüb geriyə baxanda yaşadığınız həyata təəssüflənməyəsiniz



*Yanvarın 21-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin 75 yaşı tamam olur. Bu münasibətlə İsmayıl müəllimlə görüşdük və elmə, tarixə, milli yaddaşa həsr olunmuş zəngin ömür yoluna nəzər saldıq. Söhbət zamanı onun elmi düşüncəyə çevrilmiş həyat fəlsəfəsi, uzun illər boyu daşıdığı ziyalı məsuliyyəti və prinsipial mövqeyi xüsusi diqqət çəkdi. Akademik İsmayıl Hacıyev Ulu Öndər Heydər Əliyevin siyasi və ideoloji irsinə elmi sədaqəti, milli tarixin saxtalaşdırılmasına qarşı barışmaz mövqeyi ilə seçilən alimlərdəndir. O, tarixə yalnız keçmişin xatirəsi kimi deyil, gələcəyin düzgün qurulması üçün möhkəm elmi əsas kimi yanaşır. İsmayıl müəllimlə söhbətimizi onu həm alim, həm də şəxsiyyət kimi formalaşdıran əsas dəyərlər və həyat dərslərindən başladıq.*



***– Keçdiyiniz 75 illik həyat yolu prizmasından baxsaq, sizcə İsmayıl Hacıyevi bir alim və şəxsiyyət kimi formalaşdıran əsas dəyərlər və həyat dərsləri nələrdir?***

– İnsanın həyat fəlsəfəsi yaşamaqdır. Çünki canlı orqanizm bunun üçün həyata gəlib. Müdriklərimizin "Yaşamaq yanmaqdır, yanasan gərək" ifadəsi hər bir insana aiddir. "Yanmaq" rəmzi məna daşıyır, necə yaşamağı ifadə edir. İnsan həyatda insan kimi yaşamalıdır, insan üçün nə caizdirsə, həyatını ona uyğun qurmalıdır. Hər bir insan həyatda formalaşır. Onun, ilk növbədə, insan kimi formalaşmasına bir sıra amillər təsir edir: gendən gələnlər və həyatda qazanılanlar. İkinci tərəf həlledici yer tutur. İnsanın təhsili, qarşılaşdığı yoldaşlar, ictimai mühit, ailə mühiti, ən başlıcası isə şəxsi nümunə insanın formalaşmasına əsaslı təsir göstərir.

Konkret olaraq əsas dəyərlərə gəldikdə həmin dəyərlər həm insanı formalaşdırır, həm də formalaşmış dəyərlər insanın şəxsiyyətini müəyyən edir. Bu, milli-mənəvi dəyərlərdir: danışığına, hərəkətlərinə, insani münasibətlərə, özündən böyüklərə hörmət, kiçiklərə diqqət və qayğı, ailəyə hörmət, yaşadığın ölkənin əsl vətəndaşı olmaq, səliqə-sahmanlı olmaq, hər yerdə adını və şərəfini uca tutmaq və sair. Həmişə bunlara əməl etməyə çalışmışam.

Alim də birdən-birə formalaşmır. Bunun üçün də çoxlu amillər saymaq olar. Alim olmaq istəyənlərdə müəyyən mənada qabiliyyət və istedad olmalıdır. Qabiliyyət və istedad isə təhsillə, şəxsi mütaliə ilə, əməksevərliklə, çalışqanlıqla inkişaf etdirilir. Alim adı heç də hər tədqiqatçıya yaraşmır. "Hər oxuyan alim olmur" ifadəsi təsadüfən deyilməmişdir. "Elmlə" "helm" alimliyə gedən yolda vəhdət təşkil etməlidir. Alim hər gün öyrənməlidir. Alim həm də ziyalı olmalıdır.

Bütün bunlar insanları həyatdan dərs almağa, öyrənməyə sövq etməlidir: insan insan olmalıdır, insani keyfiyyətlərə yiyələnməlidir, üzərinə düşən vəzifələri ləyaqətlə və əvəz gözləmədən yerinə yetirməlidir, həyatı öyrənməlidir, naqis hərəkətlərdən uzaq olmalıdır. Bunlar alim tövsiyəsi deyil, alimi və şəxsiyyəti formalaşdıran dəyərlərdir, həyat dərsləridir.

***– Uşaqlıq illərinizin keçdiyi Xanəgah kəndi və Əlincə mühiti sizin dünyagörüşünüzə və tarixçi kimi formalaşmağınıza necə təsir göstərib?***

– Doğulduğum və yaşadığım Xanəgah kəndi tarix və mədəniyyət abidələri ilə tanınır. Əlincə qalası, Xanəgah türbə kompleksi, Əmirxan türbəsi, XVIII əsr məscidi, Yuxarı Çeşmə abidəsi və başqaları hər bir uşağın yaddaşında əsaslı izlər buraxır. Bu o demək deyildir ki, bu abidələrin əhatəsində yaşayan uşaqlar tarixçi olmalıdır. Bu amil var, bundan kimisi faydalanır, kimisi də yox. Əmir Teymurun ordusunun 14 il Əlincə qalasını mühasirədə saxlaması, Hürufilik təlimi, onun banisi Şeyx Fəzlullah Nəiminin Xanəgahda yaşamasını tez-tez yaşlılardan eşitsək də, hələ onun mahiyyətini o qədər də dərk etmirdik. Lakin bir cəhət bizi qürurlandırırdı ki, bizim kənd tarixi kənddir, yeni yaranmayıb. Yaşadığımız evin yanında üzüm bağı var idi, o, Xan bağı adlanırdı. Sonradan bildik ki, bu, Naxçıvan xanlarına aid imiş. Təbii ki, bütün bunlar və mühit, yaşlıların söhbətləri istər-istəməz dünyagörüşümə müsbət təsir göstərib. Bu sahədə ailə mühitimiz və tarix müəllimlərimin rolunu da qeyd etməliyəm.

***– Azərbaycan tarix elminə verdiyiniz töhfələr arasında sizin üçün ən əziz və məsuliyyətli hesab etdiyiniz tədqiqat hansıdır?Naxçıvanın dövlətçilik tarixinin araşdırılması niyə sizin elmi fəaliyyətinizin əsas xəttinə çevrildi?***

– Azərbaycan tarixinin, xüsusilə də Naxçıvan tarixinin bəzi problemlərinin tədqiqi ilə məşğul olmuşam. Tədqiqat işlərinə başladığım ilk illərdə məndən soruşurdular ki, Naxçıvanşahlıq haqqında nə deyə bilərsiniz? Mən bunun Naxçıvan xanlığı olduğunu güman edirdim. Sonradan öyrəndim ki, Naxçıvan şahlığı 980-1066-cı illərdə, Naxçıvan xanlığı isə 1747-1828/40-cı illərdə mövcud olub. Hər iki qurum dövlətçilik atributlarını özündə cəmləşdirmişdi. Naxçıvanın Azərbaycan Atabəylər dövlətinin (1136-1225) paytaxt şəhəri olması, Naxçıvan tüməni, Naxçıvan sancağı, Araz-Türk Cümhuriyyəti və başqalarının dövlətçilik tarixində mühüm rol oynamaları mənim bu istiqamətdə marağımı artırdı və tədqiqat işimdə Naxçıvanın Azərbaycanın dövlətçilik tarixində tutduğu yeri öyrənməyə çalışdım.

İstənilən mövzunun öyrənilməsi tədqiqatçıdan məsuliyyət tələb edir. Tədqiqatçı həmin mövzunu əsaslı tədqiq edib özünə hörmət qazandıra da bilər, əksinə, özünü hörmətdən sala da bilər, ciddi tədqiqatçı olmadığı fikrini özünə yönəldə bilər. Ona görə də tədqiqatçı nəyi tədqiq etdiyini bilməlidir.

Mənim üçün ən əziz və məsuliyyətli hesab etdiyim tədqiqat işi Azərbaycanın dövlətçilik tarixində Naxçıvanın yeri və roludur. Bu istiqamətdə 1985-ci ildən tədqiqat aparıram. Bununla əlaqədar 1999-cu ildə doktorluq dissertasiyası müdafiə etmiş, "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" monoqrafiyam Bakıda 2018-ci ildə, 2020-ci ildə isə Sankt-Peterburqda işıq üzü görmüşdür. Bu istiqamətdə başqa kitablarım da nəşr edilib.

***– Bu gün Azərbaycan tarix elminin qarşısında duran əsas çağırışları nədə görürsünüz? Tarixin saxtalaşdırılmasına qarşı elmi mübarizədə alim məsuliyyəti sizcə nədən ibarətdir?***

– Tarix elmi elə bir ictimai elm sahəsidir ki, onun tədqiqat obyekti müxtəlif olsa da, təəssüf ki, onun tədqiqində müxtəlif baxış bucaqları da ortaya çıxa bilir. Burada tarixçinin obyektiv mövqeyi ilə yanaşı, bəzi hallarda dövlətin də mövqeyi özünü göstərir. Son dövrlərin adi bir misalı: Azərbaycan təyyarəsinin qəzaya uğramasına müxtəlif baxışlar. Rusiya nümayəndələri əvvəlcə bunu quş topası ilə əlaqələndirirdilər, sonra isə buludlu, çənli hava ilə ört-basdır etməyə çalışdılar. Lakin əsl həqiqət, fakt onu söyləməyə əsas verir ki, təyyarə açılan atəş nəticəsində zərbə almış və idarəetmə itirilmişdir.

Bəzən tarixi fakt və hadisələrə belə münasibət özünü göstərir. Sovetlər birliyi dövründə bir sıra problemlərin öyrənilməsi ya mümkün olmamış, ya da təhrif olunmuşdur. N.Nərimanov, H.Aslanov və başqa görkəmli azərbaycanlıların ölüm səbəbi və b. Ona görə də Azərbaycan tarix elminin qarşısında duran əsas vəzifə beşminillik dövlətçilik tarixi, itirilmiş ərazilərin tarixi, görkəmli şəxsiyyətlərin tarixi, mədəniyyət tarixi və başqa problem məsələlər obyektiv və hərtərəfli tədqiq edilməlidir.

***– Heydər Əliyev şəxsiyyəti və siyasi irsi sizin elmi baxışlarınıza hansı yeni ölçülər gətirdi? Ümummilli Liderin fəaliyyətinin Naxçıvan dövrünü tədqiq edərkən sizi ən çox təsirləndirən məqam nə olub? Bu gün gənclərin Heydər Əliyev irsini öyrənməsində alimlərin rolu nədən ibarət olmalıdır?***

– Ulu Öndər Heydər Əliyev dünyanın nadir dövlət və ictimai-siyasi xadimlərindən biridir. O, hərtərəfli inkişaf etmiş dövlət xadimidir. Ümummilli Lider siyasəti bildiyi kimi, iqtisadiyyatı da yüksək səviyyədə bilirdi, idarəetmənin isə ustadı idi.

Fəaliyyətim dövründə Ulu Öndərin siyasi irsini və şəxsi keyfiyyətlərini öyrənməyə çalışmışam. Onun şəxsiyyəti çox ucada idi, təsadüfi deyildir ki, dünyanın ən nüfuzlu dövlət adamları, elm, mədəniyyət xadimləri onunla münasibət qurmağa çalışırdılar. Heydər Əliyevin şəxsiyyəti hər birimiz üçün nümunədir, biz bundan şərəf duyuruq. Onun şəxsiyyətinin elə yüksək və nadir keyfiyyətləri vardır ki, dünyada onun bənzəri yoxdur. Ulu Öndərin şəxsiyyəti öyrənilməmiş dünyadır, bu gün də öyrənilir, bundan sonrakı illərdə də daim öyrəniləcəkdir. "Elmi baxışlarıma hansı yeni ölçülər gətirdi?" fikri qeyri-adi səslənir. Onun yüksək vətənpərvərliyi, azadlıq və müstəqillik duyğuları, tarixi yaddaşın bərpası, özünüdərk və soy-kökə qayıdış, xalqa bağlılıq, milli dövlətçilik məfkurəsi, milli-mənəvi dəyərlərin qiymətləndirilməsi və bu kimi ölçüləri öyrənir və bunlara əməl etməyə, yerinə yetirməyə səy göstəririk.

Ümummilli Liderin Naxçıvan dövrü fəaliyyəti mahiyyəti və əhəmiyyətinə görə çox qiymətlidir və buna Ulu Öndərin özü də yüksək dəyər vermişdir. Qüdrətli dövlət xadimi Naxçıvanın xilası naminə düşmən ölkənin Prezidenti ilə Sədərək ərazisində danışıq aparırdı. Bu təsiredici bir səhnə idi. İkinci bir xoş təsir isə 28 may 1992-ci ildə "Ümid" körpüsünün açılışı idi. Ulu Öndər ürəklə, yüksək sevinc hissi ilə çıxış edirdi. Bu hadisədən qürur duyur, sevinirdik.




> **“**
> ***İnsanın yaşlanması dağa çıxmağa bənzəyir. Dağa çox ağır-ağır çıxırsan. Zirvədən yenərkən isə çox sürətlə yenirsən. İnsanın həyatı da belədir. 50 yaşa qədər illər sanki uzanır. 50 yaşdan sonra isə illər bir-birini sürətlə əvəz edir. Elmi planlar çoxdur. Ömür vəfa etsə, biblioqrafiyamı təkmilləşdirib yenidən nəşrinə nail olmaq, seçilmiş əsərlərin çapını həyata keçirmək, görkəmli şəxsiyyətləri özündə əks etdirən "Şəxsiyyətlər" kitabını tamamlamaq, Naxçıvan Muxtar Respublikasının müstəqillik dövr tarixini monoqrafiya kimi çap etdirmək və sair. Plan və arzular insanın sağlamlığından da asılıdır. Bu imkan olarsa yerinə yetirilməsi işlər çoxdur.***
> **”**

Heydər Əliyev irsi hər birimiz üçün təlimdir, proqram sənədidir, özümüz öyrəndiyimiz kimi, gənc nəslə də öyrətməliyik. Təkcə alimin yox, müəllimin, hər bir ziyalının borcudur. Borc isə yerinə yetirilməlidir.

***– İsmayıl müəllim, istərdik ki, rəhbərlik etdiyiniz AMEA Naxçıvan Bölməsinin fəaliyyətinə nəzər salaq...***

– AMEA Naxçıvan Bölməsi Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə yaradılıb. Həmin vaxt 500 ştat, 100 faiz əlavə əməkhaqqı ilə 6 elmi-tədqiqat müəssisəsi fəaliyyətə başlamışdı. Fəaliyyətimiz dövründə hər cür diqqət və qayğı ilə əhatə olunmuşduq. Qürurverici anlardan biri Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr edilmiş (12 avqust 2002-ci il) müşavirəyə sədrlik etməsi idi. Həmin müşavirə Naxçıvanda keçirildi və Ulu Öndər proqram xarakterli nitq söyləyərək bölmənin qarşısında duran vəzifələrdən bəhs etdi.

İkinci belə bir an isə Prezident İlham Əliyevin AMEA Naxçıvan Bölməsinin ikinci binasının (Təbii Ehtiyatlar İnstitutu, Əlyazmalar Fondu, Batabat Astrofizika Rəsədxanası və b. yerləşdiyi bina) açılışında iştirak etməsi idi. Bu hadisələr bu gün də Naxçıvan Bölməsi əməkdaşlarının hafizəsindən silinməyib, xoş xatirə kimi tez-tez xatırlanır.

23 illik fəaliyyətimiz dövründə Azərbaycan Milli Elmlər Akademiyasında ən yüksək göstəricilər bölməmizə aid olmuşdur. Təkcə belə bir faktı qeyd edim ki, bizdə bir elmi işçiyə düşən əsər sayı həmişə 8-12 faiz arasında olub. 2025-ci ildə bu 10,4 faizdir.

Elmi mühitin uğur qazanması isə qayğı və tələbkarlıqdan asılıdır. Əməkdaşlar hər ay 150 faiz miqdarında əlavə əməkhaqqı alırdılar, 15-ə yaxın elmlər doktoru AMEA-nın həqiqi və müxbir üzvü seçildilər, 5 nəfər əməkdaş şəhərdə evlə təmin olundu. Bütün bunlar elmi əməkdaşların fəallığını artırırdı.

Azərbaycan elminin inkişafı hər zaman dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Prezident İlham Əliyevin ötən il Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley tədbirində şəxsən iştirakı bu sahəyə verilən yüksək dəyərin və ziyalı təbəqəyə göstərilən ehtiramın aydın təzahürüdür. Dövlət başçısının həmin tədbirdə səsləndirdiyi fikirlər elmi ictimaiyyət üçün strateji baxışın ifadəsi olmaqla yanaşı, gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirən mühüm mesajlar kimi dəyərləndirilir. Bu çıxış, əslində, elmin qarşısında dayanan çağırışları və dövlətin elmə verdiyi davamlı dəstəyin mahiyyətini özündə birləşdirən konseptual sənəd rolunu oynayır.

***– Onlarla elmlər doktoru və fəlsəfə doktoru yetişdirmisiniz. Müəllim olaraq ən böyük qazancınız nədir? Gənc tarixçilərə verdiyiniz ən əsas tövsiyə nədir?***

– Hər bir alim, xüsusilə də elmlər doktoru, akademik və müxbir üzvlər öz məktəbini yaratmağa çalışmalı, yetirmələri olmalıdır. Elmlər doktoru tanıyıram ki, fəaliyyəti dövründə 1 nəfər də olsa, fəlsəfə doktoru hazırlamayıb. Bu alim deyilən ziyalı üçün çox böyük qüsurdur. Elmi rəhbər və məsləhətçiliyimlə 32 nəfər elmi dərəcəli tarixçi kadrlar hazırlanıb ki, bunlardan 10 nəfəri elmlər doktorudur. 25 nəfərin fəlsəfə və elmlər doktoru dissertasiya müdafiəsində rəsmi opponent olmuşam. Bu işləri bu gün də davam etdirirəm. Bunlar arasında xarici ölkə tədqiqatçıları da olmuşdur.

1974-cü ildən orta ümumtəhsil məktəbində, 1978-ci ildən isə ali təhsil müəssisələrində müəllimliklə də məşğul oluram. Mənə elə gəlir ki, yaxşı müəllim orta məktəbdə yetişir. Ali məktəbdə isə müəllim həm də tədqiqat işini yerinə yetirir. Müəllim olaraq ən böyük qazancım dərs dediyim tələbələrin hörmətini qazanmaqdır. Tələbələr müəllimi bütün keyfiyyətləri ilə düzgün müəyyən edə bilir. Bir faktı xatırlayıram. 2025-ci ilin sonlarında NDU-nun Filologiya fakültəsini 30 il bundan əvvəl bitirmiş bir qrup məzun mənimlə görüşmək istədiklərini bildirdilər. Düzü bunu bir qədər təəccüblə qarşıladım. Mən onların tarixçi məzunlar olduğunu düşünürdüm. Söhbət əsnasında məlum oldu ki, onlar filoloqdurlar və tələbəlik dövründə onlara mühazirə aparmışam. Yaxşı və təmənnasız müəllim böyük bir ömür qazanmış olur.

Gənc tarixçilər həmişə öz üzərlərində işləsinlər, mütaliədən qalmasınlar, araşdırmalar aparsınlar, arxivlərə getsinlər, orijinal tədqiqatlar üçün aktual mövzulara müraciət etsinlər.

***– Boş vaxtlarınızda nə işlə məşğul olmağı sevirsiniz?***

– 50 ildən artıqdır ki, kitab əldə etməklə məşğulam. Kitabxanamda bir sıra xarakterli kitablar toplanıb. Zəngin kitabxanası olan alim, müəllim üçün boş vaxt tapmaq bir qədər çətindir. Çünki kitablar qulluq tələb edir, səliqəliliyi, təmizliyi sevir. Bu vaxt oxumadığın, yaddan çıxan kitablar rastına çıxır. Həmin kitablar boş vaxtını alır, lakin sənə yeni məlumatlar verir.

Vaxtımın bir hissəsini dövri mətbuata ayırıram. 1978-ci ildən bu günə qədər qəzetlərə baxmasam, özümü narahat hiss edirəm. Qəzetlər boş vaxtımın yoldaşıdır. Düzdür, bəzi adamlar bunu sosial şəbəkələrlə əvəz etməyi düşünürlər. Mən bunun əleyhinəyəm. Sosial şəbəkələrə baxmaq vaxt itirməkdir.

Təbiəti, yaşıllığı da çox sevirəm. Bağçamızda, əgər ona bağça demək mümkünsə, əkdiyim güllərə və ağaclara qulluq edirəm.

***– Sizcə əsl ziyalı hansı xüsusiyyətləri özündə birləşdirməlidir?***

– Məncə ziyalı "ziya" sözündən yaranıb. Ziya isə işıqsaçan mənasında işlənir. Yəni ziyalıda müəyyən insani keyfiyyətlər olmalıdır ki, o da insanlara təsir edə bilsin. İlk növbədə, təhsilli olmalıdır. Təhsili olmayan ziyalılar istənilən qədərdir. Demək, təhsil vacibdir, lakin əsas şərt deyil. Ziyalı bilikli və geniş dünyagörüşlü olmalıdır. Bir çox sadə adamları tanıyırıq ki, mükəmməl biliyə və geniş dünyagörüşünə malikdir. Orta məktəb müəllimi Əsəd müəllimi Naxçıvanda çox adam tanıyırdı. O, elmlər doktoruna dərs demək gücündə olan ziyalı idi. Ziyalı dürüst olmalı, sözü ilə əməli üst-üstə düşməlidir. Bunlar mənim düşüncələrimdir. Hər bir insanın buna istənilən qədər əlavəsi ola bilər.

***– Həyatda sizi ən çox sevindirən və ən çox narahat edən məqamlar barədə nə deyə bilərsiz?***



– Ölkəmizin müstəqilliyinin bərpa edilməsi, ərazi bütövlüyü, suverenliyimizin qazanılması, işğal edilmiş torpaqlarımızın azad edilməsi, qaçqınlarımızın öz yurdlarına qayıtmaları ən çox sevindirici hadisələrdəndir.

Bəzi adamların öz yerini bilməmələri, ikiüzlülüyü, insan adı daşısa da, nalayiq hərəkətlərə yol verməsi cəmiyyətimizi narahat etdiyi kimi, məni də narahat edir.

***– Bu gün geriyə baxanda "Yaxşı ki, belə etdim" dediyiniz qərar var?***

– Həyatda hər bir insan bir iş dalınca gedəndə, özünə həyat amalı seçəndə fikirləşməli olur, yekunda müəyyən qərara gəlir. Qərardan sonra düz və ya səhv etdiyini başa düşür. Mənim də həyatımda belə anlar istisna deyil. AMEA Naxçıvan Bölməsinin sədri vəzifəsi mənə təklif ediləndə imtina etmişdim. Ulu Öndər Heydər Əliyevin sədrlik etdiyi müşavirədə çıxış edən zaman qərarımı dəyişdim, həmin vəzifəni qəbul etdim. Bölmənin sədri işləyərkən isə Bakıdan vəzifə üçün başqa bir təklif aldım. Həmin təklifi qəbul etmədim. Yaxşı ki, belə etdim.

***– 75 yaşdan sonrakı dövr üçün hansı elmi planlarınız və arzularınız var?***

– İnsanın yaşlanması dağa çıxmağa bənzəyir. Dağa çox ağır-ağır çıxırsan. Zirvədən yenərkən isə çox sürətlə yenirsən. İnsanın həyatı da belədir. 50 yaşa qədər illər sanki uzanır. 50 yaşdan sonra isə illər bir-birini sürətlə əvəz edir. Elmi planlar çoxdur. Ömür vəfa etsə, biblioqrafiyamı təkmilləşdirib yenidən nəşrinə nail olmaq, seçilmiş əsərlərin çapını həyata keçirmək, görkəmli şəxsiyyətləri özündə əks etdirən "Şəxsiyyətlər" kitabını tamamlamaq, Naxçıvan Muxtar Respublikasının müstəqillik dövr tarixini monoqrafiya kimi çap etdirmək və sair.

Plan və arzular insanın sağlamlığından da asılıdır. Bu imkan olarsa yerinə yetirilməsi işlər çoxdur.

***– Hörmətli İsmayıl müəllim, biz də "Şərq qapısı" qəzetinin kollektivi adından sizi təbrik edir, möhkəm cansağlığı, uğurlar arzulayırıq. Çox sağ olun...***







**Müsahibəni apardı: Sara ƏZİMOVA**
***"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Şahbuzda 2025-ci ilin yekunları və qarşıda duran vəzifələrə dair hesabat tədbiri olub




Yanvarın 15-də "2025-ci ildə Şahbuz rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş hesabat tədbiri keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 13-cü ərazi sektorunun müdiri Çingiz Əliyev, Milli Məclisin deputatı Səttar Möhbalıyev, YAP Şahbuz Rayon Təşkilatının sədri Rizvan Məmmədov, Ali Məclisin deputatları, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, şəhər, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələr, bələdiyyə sədrləri, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edib, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Şahbuz Rayon Mədəniyyət Sarayında davam edən tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev qeyd edib ki, rayonda quruculuq tədbirlərinin geniş vüsət alması daha çox investisiya qoyuluşuna səbəb olub, 2025-ci ildə bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi 7 milyon 615 min 200 manat təşkil edib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyaların həcmi 6 milyon 943 min 400 manat olub. Ötən il 26 min 890 manatlıq sənaye məhsulu istehsal olunub. Büdcə vəsaitlərindən səmərəli istifadə olunmasına diqqət artırılıb, bank, maliyyə, vergi sisteminin sağlamlaşdırılması və təkmilləşdirilməsi sahəsində əməli tədbirlər həyata keçirilib. 2025-ci ildə rayonun yerli büdcəsinin gəlirləri 3 milyon 500



min manat plana qarşı 4 milyon 153 min 448 manat icra olunaraqbüdcəyə 653 min 448 manat çox vəsait daxil olub. Yerli büdcə xərcləri isə 4 milyon 416 min manat dürüst təyinata qarşı 3 milyon 239 min 143 manat olmaqla, 1 milyon 176 min 857 manat qənaətlə icra edilib. Rayon iqtisadiyyatının əsasını təşkil edən və əhalinin əsas məşğulluq sahəsi olan aqrar sahəyə maraq artıb. 2025-ci ildə rayon üzrə 36 milyon 440 min 300 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub.

Rəfael Babayev informasiya təminatı, rabitə və poçt, ekologiya, yol-nəqliyyat, su təsərrüfatı, enerji təminatı, məşğulluq, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə görülən işləri də diqqətə çatdırıb, 2026-cı ildə qarşıda duran vəzifələrdən danışıb.

Tədbirdə Şahbuz Rayon Maliyyə Şöbəsinin müdiri Elçin Hüseynovun və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Orxan Rzayevin hesabat çıxışları dinlənilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxışında Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsinə söykənərək Azərbaycanın siyasi sabitliyini, iqtisadi gücünü və beynəlxalq mövqelərini daha da möhkəmləndirdiyini, ölkəmizi yeni inkişaf mərhələsinə yüksəltdiyini vurğulayıb. Qeyd edib ki, bu strateji xəttə sadiqlik, dövlət-xalq birliyinə əsaslanan idarəetmə və xalqa xidmət prinsipi Azərbaycanın davamlı tərəqqisini və firavan gələcəyini təmin edən əsas amil olaraq qalacaqdır. Bu gün Naxçıvanda su, enerji, yol-nəqliyyat, rabitə, kommunal təsərrüfat sahələrində dayanıqlı və müasir həllərin tətbiqi, əhalinin həyat keyfiyyətinin yüksəldilməsi istiqamətində iş aparılır. Kənd təsərrüfatı, turizm və xidmət sahələrinin inkişafı, sahibkarlığın dəstəklənməsi və yeni iş yerlərinin yaradılması məqsədilə yerli potensialdan səmərəli istifadə olunması, investisiya təşviqlərinin genişləndirilməsi, müasir infrastrukturun formalaşdırılması və biznes subyektlərinin inkişafı üçün ardıcıl və nəticəyönümlü tədbirlər həyata keçirilir.

# Kəngərlidə ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib

Yanvarın 15-də "2025-ci ildə Kəngərli rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş hesabat tədbiri keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 13-cü ərazi sektorunun müdiri Çingiz Əliyev, Milli Məclisin deputatı Səttar Möhbalıyev, YAP Kəngərli Rayon Təşkilatının sədri Sevda Quluyeva, Ali Məclisin deputatları, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, şəhər, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələr, bələdiyyə sədrləri, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Qıvraq qəsəbəsində ucaldılmış abidəsini ziyarət edib, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Kəngərli Rayon Mədəniyyət Sarayında davam edən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov 2025-ci ilin təhlilini apararaq Kəngərli rayonunun ötən ili yüksək sosial-iqtisadi nəticələr və nailiyyətlərlə başa vurduğunu bildirib. Qeyd edib ki, rayonun iqtisadiyyatını, kənd təsərrüfatını gücləndirmək, tikinti,



abadlıq və quruculuq işlərini davam etdirmək, yeni layihələrin icrasını təmin etmək, işsizliyi minimuma endirmək, yeni iş yerlərinin açılmasında, əhalinin məşğulluğunun təmin edilməsində təşəbbüsləri reallaşdırmaq əsas vəzifələr kimi diqqətdə saxlanılıb. Ötən il rayon büdcəsinin gəlirləri 3 milyon 693 min manat proqnoza qarşı 3 milyon 734 min 300 manat icra olunub. Proqnoz tapşırığı 101,1 faiz əməl edilməklə büdcəyə 41 min 300 manat əlavə vəsait daxil olub. 2025-ci il üçün dürüstləşdirilmiş büdcə xərcləri 2 milyon 969 min manat nəzərdə tutulub, hesabat dövründə həmin vəsaitin 2 milyon 203 min 62 manatı xərclənib, proqnoza 74,2 faiz əməl edilib.

Rayon həyatının bütün sahələri üzrə statistik məlumatları və əldə olunan uğurları diqqətə çatdıran Kamal Ələkbərov 2026-cı ilin də Kəngərli üçün əlamətdar olacağına əminliyini ifadə edib, rayon ictimaiyyəti adından göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığını bildirib.

Tədbirdə Kəngərli Rayon Maliyyə Şöbəsinin müdiri Əsgər Ağayev və Statistika İdarəsinin rəisi Novruz Kətanov çıxış edərək ötən il müvafiq sahələrdə görülən işlərdən bəhs ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan prioritet vəzifələrdən bəhs edib. Qeyd edib ki, reallaşdırılan layihələr regionun istehsal və infrastruktur potensialının artırılmasına, əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə və uzunmüddətli inkişafın təmin olunmasına xidmət edir. Proqramın icrası çərçivəsində iqtisadi fəallığın gücləndirilməsi və sahibkarlıq mühitinin daha da əlverişli hala gətirilməsi məqsədilə cari ilin əvvəlindən etibarən Naxçıvan Muxtar Respublikası üzrə müvafiq sahibkarlıq subyektləri üçün 10 il müddətinə vergi və gömrük rüsumları üzrə güzəştlər tətbiq olunmuş, eyni zamanda sosial sığorta ödənişlərinin subsidiyalaşdırılmasına başlanılıb. Hər bir infrastruktur layihəsi, iqtisadi təşəbbüs və ya idarəetmə qərarı sonda vətəndaş məmnunluğuna, sosial ədalətin təmini və insanların gündəlik həyat



şəraitinin yaxşılaşdırılmasına yönəlmiş olmalıdır.

# Babəkdə 2025-ci ilin yekunları və qarşıda duran vəzifələrə dair hesabat tədbiri keçirilib

Yanvarın 16-da "2025-ci ildə Babək rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş hesabat tədbiri keçirilib.




Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 13-cü ərazi sektorunun müdiri Çingiz Əliyev, Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva, YAP Babək Rayon Təşkilatının sədri İsa Məmmədov, Ali Məclisin deputatları, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, şəhər, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələri, bələdiyyə sədrləri, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edib, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

ardı 11-ci səhifədə

Babək Rayon Mədəniyyət Sarayında davam edən tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov Ümummilli Lider Heydər Əliyevin qərarı ilə yaradılan Babək rayonunun Prezident İlham Əliyevin rəhbərliyi altında böyük inkişaf yolu keçdiyini vurğulayaraq bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyən olunmuş məqsəd və prioritet istiqamətlər üzrə işlər Babək rayonunda da uğurla davam etdirilir. Dövlət Proqramı çərçivəsində Babək şəhəri, Nehrəm qəsəbəsi, Çeşməbasar, Güznüt və Araz kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə Araz çayından qidalanan "Araz 1" və "Araz 2" nasos stansiyalarının və təzyiqli boru xəttinin tikintisi üzrə 16,7 km məsafədə işlərə başlanılıb, ötən il bu sahədə işlər 5 km məsafədə yerinə yetirilib. Rayonun ucqar yaşayış məntəqələri olan Göynük və Nəhəcir kəndlərinin yolları 9,1 km məsafədə təmir olunub, Nəhəcir-Göynük kəndlərarası yol 6,1 km məsafədə əsaslı təmir edilib. Həmçinin Babək şəhərində, Nehrəm və Cəhri qəsəbələrində sadə tipli açıq hava idman qurğuları quraşdırılıb. Ötən il 456 yerlik Hacıvar kənd tam orta məktəbinin tikinti işləri başa çatıb və 522 yerlik Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbində tikinti işləri davam etdirilib. Eyni zamanda 110/35/10 kV-luq Çeşməbasar Yarımstansiyasının tikinti işlərinə başlanılıb.

Digər sahələrdə həyata keçirilən tədbirləri də diqqətə çatdıran Ovni Muradov, həmçinin 2026-cı ildə qarşıda duran vəzifələrdən bəhs edib.

Tədbirdə Babək Rayon Maliyyə İdarəsinin müdiri Rasim Zeynalov və Təhsil Şöbəsinin müdiri Sahil Əlizadə hesabat çıxışı ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxışında Prezident İlham Əliyevin siyasətinin əsasını regionların davamlı inkişafı və ölkəmizdə vətəndaş rifahının təminatının təşkil etdiyini vurğulayıb. Qeyd edib ki, davamlı inkişafda olan Naxçıvan Muxtar Respublikasında da bu siyasətin böyük uğurlarının şahidi oluruq. Ötən illər ərzində muxtar respublikada sosial-iqtisadi sferada əldə olunmuş hər bir nailiyyət məhz Prezident İlham Əliyevin Naxçıvana olan diqqət və qayğısının, həyata keçirdiyi sosial-iqtisadi islahatların nəticəsidir. Dövlət başçımızın 2023-cü il 5 iyul tarixli Sərəncamı ilə təsdiqlənmiş və hazırda icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" Naxçıvanın yeni tarixi mərhələdə mühüm və strateji inkişaf konsepsiyasıdır. Dövlət Proqramında muxtar respublikanın sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilib. Ötən dövrdə Dövlət Proqramının icrası istiqamətində bir sıra mühüm infrastruktur layihələri icra olunub, davamlı sosial-iqtisadi inkişaf təmin edilib. Ötən il muxtar respublikada bir sıra vacib sahələrin inkişafını nəzərdə tutan ardıcıl sərəncamlar imzalaması da dövlət başçımızın Naxçıvana davamlı diqqət və qayğısının daha bir ifadəsidir. Dövlət başçımızın həyata keçirdiyi siyasət xalqın maraqlarına söykənən, məsuliyyətli və məqsədyönlü idarəetmə modeli kimi dəyərləndirilir.

# Sərhədin bir addımlığında yerləşən 37 yaşlı məktəb













*Sədərək... Tarixin sərt sınaqlarından alnıaçıq çıxan, "Qeyrət qalası" kimi yaddaşlara həkk olunan bu sərhəd yurdu uzun illər mənfur düşmənə sinə gərib. Bu torpağın hünərli oğullarına bata bilməyən düşmənlər isə bu gün səksəkədədirlər. Çünki bir zamanlar Vətən yalnız xalqın iradəsi, mərdliyi və torpağa bağlılığı hesabına qorunurdusa, bu gün həm sərhəddə ayıq-sayıq dayanan əsgərlərin, həm müasir texnika ilə təchiz olunmuş ordunun, həm də dövlət qayğısının gücü ilə qorunur. Bu gün Sədərəyin siması tamamilə dəyişib. Dünənin ağrı-acılarını, mənəvi yaralarını səbir və dözüm ilə sinəsində daşıyan sədərəklilər bu qədim yurdun xoş günlərini gördükcə ürəklərinə sevinc dolur. Bir zamanlar sabaha ümidləri qalmayan insanlar bu gün daha aydın sabahlara, parlaq gələcəyə doğru inamla addımlayırlar. O gələcəyin ən möhkəm dayaqlarından biri isə təhsildir. Çünki təhsil hər bir dövlətin və cəmiyyətin həyatında mühüm rol oynayır; təhsilsiz inkişaf, təhsilsiz tərəqqi mümkün deyil. Sərhəd bölgəsi olan Sədərək rayonunun timsalında bunu aydın görmək mümkündür.*

Müstəqillikdən əvvəl və müstəqillik illərində bölgənin təhsil mühitini müqayisə etdikdə həm şərait, həm də keyfiyyət baxımından böyük fərq açıq görünür. Bu gün sərhədin bir addımlığında dayanan Sədərək rayon Heydərabad qəsəbə tam orta məktəbi müasir təhsil mühiti, işıqlı sinif otaqları və sabaha inamla baxan şagirdləri ilə gələcəyin təminatına çevrilib. Bu məktəb artıq 37 ildir ki, fəaliyyət göstərir. Səhərin erkən çağı üz tuturuq Heydərabad qəsəbə tam orta məktəbinə. Məktəbin həyətinə çatanda ilk diqqətimizi çəkən sərhəd yaxınlığında ucalan üçrəngli bayrağın dalğalanmasıdır. O an sanki ürəyimizə qürur, gözlərimizə isə Vətən sevgisi dolur. Düşmənin bir addım uzaqlığında, sərhəd boyu dayanan məktəbliləri görəndə isə şahidi oluruq ki, burada təhsil alan gənclər də qorxmadan, inamla, içlərindəki Vətən sevgisi ilə dərsə başlayır, gələcək nəsillərə örnək olurlar. Çünki gələcək yalnız güclü, bilikli və Vətənini sevən nəsillərin əllərindədir və bu nəsil də məhz burada, bu məktəbdə yetişir.

Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvana qayıdışından sonra Sədərəkdə olması, sərhəd bölgəsinin sakinləri ilə görüşməsi və onların problemləri ilə maraqlanması burada həyatın bütün sahələrinin canlanmasına gətirib çıxardı. İnsanlar sabaha inamla baxmağa başladılar. Bu gün qazanılan uğurların təməli məhz o dövrdə möhkəmləndirilib.

Sədərəyin təhsil müəssisələri hərtərəfli qayğı ilə əhatə olunub, maddi-texniki bazası gücləndirilib, kadr təminatı yaxşılaşdırılıb. Təhsilin səviyyəsinin yüksəldilməsində başlıca amillərdən biri müasir tədris şəraitinin yaradılmasıdır. Bu məqsədlə məktəbin fəaliyyəti, təhsil mühiti tədris prosesi və yaradılan şəraitlə yaxından tanış olduq. Hazırda bu təhsil ocağında 49 şagird təhsil alır. Sevindirici haldır ki, məktəbin məzunları hər il qəbul imtahanlarında 100 faiz nəticə göstərirlər. Müasir və işıqlı sinif otaqları, zəngin laboratoriyalar, elektron lövhəli və kompüter sinifləri burada təhsilin yüksək səviyyədə qurulmasına imkan verir.

Sədərək rayonunun Heydərabad qəsəbə tam orta məktəbinin tarix müəllimi 63 yaşlı Vətən Əhmədovla həmsöhbət olan zaman öyrənirik ki, artıq 36 ildir ki, müəllim kimi fəaliyyət göstərir. O deyir ki, bu təhsil ocağının digər məktəblərdən əsas fərqi 1990-cı illərdə sərhəddə baş verən tariximizin canlı şahidi olmasıdır. 1989-cu ildə fəaliyyətə başlayan məktəb qısa müddətdə bölgənin maarif mərkəzinə çevrilsə də, məlum hadisələr fonunda təhsil prosesi müvəqqəti olaraq dayanıb. Ulu Öndər Heydər Əliyev Sədərəyə gəldikdən sonra məktəb yenidən fəaliyyətini bərpa edib və bu gün Heydərabad qəsəbə tam orta məktəbi kimi tanınır. Məktəbin pəncərələri birbaşa sərhəd xəttinə açılır. Hətta məktəbin həyətindən erməni postları görünür.

Vətən Əhmədov həmin günləri xatırlayır: "Güllə səsləri altında dərs keçmişik. O vaxtlar Sədərək istiqamətində 18-19 gün davam edən ağır atışmalar zamanı kəndlə düşmən mövqeləri arasında qalın tüstü qatı əmələ gəlirdi. Amma bütün bu təhlükələrə baxmayaraq, qadınlar da, uşaqlar da kəndi tərk etmirdi". Söhbət zamanı öyrənirik ki, Vətən müəllim özü də Kərki kəndindəndir. O həm səngərdə döyüşüb, həm də məktəbdə dərs deyib: "Özüm sərhəddə vuruşurdum. Məktəblilər bizə yemək, su gətirirdilər. Uşaqların o fədakarlığını heç vaxt unutmaram. Həmin illərdə məktəbin ərazisində atılmış mərmilərin izləri, güllə deşikləri qalırdı. Hətta bir müddət məktəb binasında sovet ordusunun hərbi hissələri yerləşdirilmişdi. Naxçıvanın müxtəlif bölgələrindən gələn könüllülər Sədərəkdə torpağın müdafiəsi uğrunda döyüşürdülər. Bu müqəddəs ocaq təkcə Birinci Qarabağ müharibəsinin deyil, Vətən müharibəsinin də izlərini daşıyır. Belə ki, Heydərabad məktəbində təhsil alan şəhidimiz Tağı Abdullazadə İkinci Qarabağ müharibəsində qəhrəmanlıqla döyüşüb şəhid olubdur".

Digər həmsöhbətimiz məktəbin gənc müəllimi Fatimə Həsənova oldu. O bu il ibtidai sinif metodikası üzrə II sinifdə fəaliyyətə başlayıb. Özü Dəmirçi kəndindəndir. O bildirdi: "Məktəbimiz sərhədin bir addımlığında yerləşir. Təkcə mən yox, digər müəllimlər də uzaq kəndlərdən gələrək şagirdlərə bilik aşılayırlar. Şəhərdən uzaqda olmağımıza baxmayaraq, yeni metodlardan istifadə etməklə təhsil sistemini daha da təkmilləşdiririk. Əsas məqsədimiz vətənpərvər, savadlı uşaqlar yetişdirməkdir. Sərhəd bölgəsində yaşamasaq belə bu müqəddəs torpaqda xidmət etməyi özümüzə borc bilirik".

Şagirdlərin də fikirlərini öyrənmək üçün onlarla həmsöhbət oluruq. Heydərabad qəsəbə tam orta məktəbinin XI sinif şagirdi Nuray İbrahimova deyir: "Sərhəd bölgəsində oxumaq bizim məsuliyyətimizi daha da artırır. Biz sərhədin bir addımlığında olmağımıza baxmayaraq, özümüzü daim güvəndə hiss edirik. Çünki bilirik ki, Vətənin keşiyində ayıq-sayıq dayanan əsgərlərimiz var və bu da bizə daha yaxşı oxumaq üçün stimul yaradır. Mən dərslərimi də böyük məsuliyyətlə oxuyuram. I ixtisas qrupuna hazırlaşıram. Milli Aviasiya Akademiyasında təhsil almaq istəyirəm. Layiqli vətəndaş olmağımız üçün bizə geniş imkanlar açılıb. Mən də gələcəkdə Vətənimə bilik və əməyimlə xidmət edəcəyəm".

Söhbətimizi yüksək dərəcədə sağlam, əmin və qürurlu notlarla yekunlaşdırırıq. Sərhəddə fəaliyyət göstərən bu təhsil ocağının önündə inamla, alnıaçıq dayanırıq. Çünki bilirik ki, cəmi 37 yaşı olan Heydərabad qəsəbə tam orta məktəbi bundan sonra da layiqli fəaliyyəti ilə savadlı, milli ruhlu və vətənpərvər gəncliyin yetişməsinə töhfə verəcək. Bu məktəbdə yetişən şagirdlər doğulduqları və yaşadıqları torpağın nə qədər müqəddəs olduğunu dərindən dərk etməlidirlər. Onlar bilməlidirlər ki, bu torpaq üzərində milli-mənəvi dəyərlərimiz böyük ehtiramla qorunur, tariximiz, kimliyimiz və gələcəyimiz bu dəyərlər üzərində ucalır. Məhz belə bir mühitdə formalaşan gənclərin Vətənə layiqli vətəndaş olmağın şərəfini duyduğunun bir daha şahidi olduq.

**Bülbül RÖVŞƏNQIZI**

# Su təsərrüfatının modernləşdirilməsi: qlobal problemə strateji baxış

Bu il yanvarın 12-də Prezident İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illəri əhatə edən Dövlət Proqramına həsr olunmuş müşavirə ölkə başçısının su problemlərinə strateji yanaşmasını nümayiş etdirir. Qəbul olunan Dövlət Proqramı dünyada su probleminin mövcud olduğu bir zamanda ölkəmizdə su idarəçiliyində yeni yanaşmanın təşviqinə, problemin həlli yollarının araşdırılmasına və su itkisinin qarşısının alınmasına xidmət edir. İki mərhələdə (2026-2030 və 2031-2035) həyata keçiriləcək proqramın icrası zamanı su və kanalizasiya infrastrukturunun tam yenilənməsi, fasiləsiz su təminatı səviyyəsinin 95%-ə çatdırılması nəzərdə tutulub.

Proqramın icrası nəticəsində 28-30 yeni su anbarı tikiləcək ki, bu da su ehtiyatlarının səmərəli idarə olunmasını təmin edərək quraqlıq dövründə su çatışmazlığını aradan qaldıracaq, Azərbaycanı regionda su təhlükəsizliyi nümunəsi edəcək; bu anbarlar həm içməli su, həm də suvarma suyu ehtiyaclarını qarşılayacaq. Onillik dövrü əhatə edən bu strateji sənəd yağış və tullantı sularının idarə olunması sistemlərini müasirləşdirərək paytaxt və ətraf qəsəbələrin ekoloji təhlükəsizliyini və su təminatını yeni mərhələyə yüksəldəcək. Bu təşəbbüs, eyni zamanda Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq su resurslarının effektiv istifadəsini təmin edərək gələcək nəsillər üçün təmiz su mirasını qoruyacaq, iqlim dəyişikliyi təsirlərini yumşaldacaq və ölkənin ekoloji dayanıqlığını gücləndirəcək.

***Su təsərrüfatının modernləşməsi Naxçıvanın da analoji problemini aradan qaldıracaq***

Məlumdur ki, Naxçıvan Muxtar Respublikasının əksər ərazisində quraq və yarımquraq iqlim şəraiti hökm sürür. Eyni zamanda əhalinin təbii artımı, kənd təsərrüfatı və iqtisadiyyatın inkişafı suya olan tələbatı gündən-günə artırır. Suvarma suyunun çatışmazlığı kənd təsərrüfatı məhsulu istehsalı üçün çox ciddi problemlər yaradır. Nəzərə alsaq ki, ölkədə su resurslarının 70%-dən çoxu kənd təsərrüfatı suvarmasında istifadə olunur, o zaman sudan səmərəli istifadənin zəruriliyi ön plana çıxır ki, bu da yeni qəbul olunan Dövlət Proqramında öz əksini tapıb.

2024-cü ildə yağan güclü yağışlar, eyni zamanda dağlarda yağıntının çox olması ötən il və cari təqvim ili ilə müqayisədə muxtar respublikada bol su ehtiyatının yaranmasına səbəb olmuşdu. Belə ki, muxtar respublikanın əsas sututarlarından biri hesab olunan, ümumi həcmi 100 milyon kubmetr olan Heydər Əliyev su anbarında həmin il suyun həcmi yay aylarında 90 milyon kubmetr səddini aşmışdı. Lakin bu rəqəmi müvafiq dövr üçün deyə bilmirik. Quraqlıq dövrü və yağıntıların olmaması nəticəsində artıq muxtar respublika ərazisində suvarma üçün yararlı olan göllərdə də suyun hədsiz dərəcədə azalması müşahidə edilir.

Ötən ilin quraqlıq keçməsi fonunda son günlər muxtar respublikanın dağlıq və dağətəyi ərazilərinə yağan qar su ehtiyatlarının bərpası baxımından müsbət amil kimi qiymətləndirilir. Mütəxəssislərin fikrincə, bu yağıntılar çayların qidalanmasına, su anbarlarına suyun yığılmasına və ümumilikdə, su təminatının mərhələli şəkildə yaxşılaşmasına şərait yarada bilər.

Mövzu ilə bağlı məlumat verən Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin Texniki istehsalat və suyun balansı şöbəsinin müdiri Fərman Fərzəliyev bildirib ki, 2025-ci ilin 16 yanvar tarixinə muxtar respublikada ümumi su ehtiyatları 166 milyon 120 min kubmetr təşkil edib. Cari ilin eyni dövründə isə bu göstərici 81 milyon 975 min kubmetrdir. Bu rəqəmlər ötən ilin quraq keçməsinin su ehtiyatlarına ciddi təsir göstərdiyini deməyə əsas verir.

Şöbə müdiri əlavə edib ki, Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin balansında irili-xırdalı, ümumilikdə, 37 ədəd su anbarı mövcuddur. Həmin su anbarları əhalinin içməli suya, kənd təsərrüfatının isə suvarma suyuna olan tələbatının ödənilməsində mühüm rol oynayır. Qeyd edək ki, 16 yanvar 2026-cı il tarixinə Heydər Əliyev su anbarında 16 milyon 15 min kubmetr su ehtiyatı mövcuddur. Ötən ilin eyni dövründə isə bu göstərici 41 milyon 140 min kubmetr olub.

***Tullantı və yağış sularından səmərəli istifadə müsbət nəticə verəcək***

Bundan sonrakı yağışlı hava şəraitini və dağlardan gələn qar sularını nəzərə alsaq, o zaman belə bir sual yaranır: ehtiyat sular harada toplanacaq və ya bu suları toplamaq üçün nə etmək lazımdır? Təəssüf hissi ilə qeyd edə bilərik ki, uzun illərdir, Naxçıvanda yağış sularının toplanılması və ondan təsərrüfatlarda istifadə olunması təcrübəsi formalaşmayıb. Düzdür, yağış yağdıqda və ya qar əridikdə mövcud olan göllər və ya bəzi su anbarlarına su yığılır, lakin davamlı yağıntılardan lazımınca toplanılmadığından böyük həcmdə su boşuna axaraq selə çevrilir. Yağıntılar nəticəsində yığılan sular əkin sahələrinə və çay məcralarına axıdılır. Halbuki yağış sularından istifadənin böyük perspektivləri var. Yaponiya, ABŞ, eləcə də bəzi Avropa ölkələrində yağış suları şəbəkəsi ayrıdır. Ölkə rütubətlidirsə, su ehtiyatları ilə yaxşı təmin olunubsa, bu zaman yağış suları ayrıca olaraq birbaşa çaylara axıdılır. Burada məqsəd çayların ekoloji sistemlərinin dəstəklənməsi, həmçinin çaylarda suyun bolluğunu təmin etməkdir. Bəzi ölkələrdə isə yağış suları müəyyən su anbarlarına, yeni yaradılan süni göllərə yığılır. Bu göllər isə daha çox dağətəyi bölgələrdə yaradılır. Muxtar respublikanın Kiçik Qafqaz dağlarının ətəyində yerləşdiyini nəzərə alsaq, bu cür gölləri bizdə də yaratmaq olar və müəyyən fasilələrdə kifayət qədər su ehtiyatı toplamaq mümkündür. Təbii ki, göllər yaradılarkən ərazinin relyefi nəzərə alınmalı, mütəxəssislər tərəfindən kompleks tədqiqatlar aparılmalı və buna uyğun işlər görülməlidir. Bəzi ölkələrdə mövcud göllərin, çayların yaxınlığında süni göllərin salınması təcrübəsi də var. Əlbəttə, bu işlər həyata keçirilsə, Naxçıvanda müəyyən su problemlərinin aradan qaldırılması üçün yerüstü, yeraltı su mənbələrindən də səmərəli istifadə etmək mümkün olar.

Cari il yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirədə çıxış edən dövlət başçısı bu məsələyə toxunaraq qeyd edib ki, bu gün dünyada iqlim dəyişikliyi ilə bağlı ciddi narahatlıq hökm sürür: ***"Bir çox ölkələr artıq bundan ciddi zərər görür. Bizim su təhlükəsizliyimizlə bağlı olan bütün məsələlər sistem şəklində öz həllini tapır. Qeyd etdiyim kimi, son 20 il ərzində ancaq sadaladığım, – halbuki görülən işlər qat-qat çoxdur, – layihələr onu göstərir ki, əgər vaxtında bu addımlar atılmasaydı, bu gün su təhlükəsizliyimizlə bağlı olan məsələlər bizim üçün çox ciddi problemlər yarada bilərdi. Bizim məqsədimiz isə əhalini və sənayeni, kənd təsərrüfatını dayanıqlı su ilə təmin etməkdir, su mənbələrini qorumaqdır, su anbarlarının potensialını artırmaqdır, uçotu tam yaratmaqdır və mövsüm gələndə suları yığmaqdır ki, sonra il boyunca onlardan istifadə edək".***

Onillik dövrü əhatə edən Dövlət Proqramı yağış və tullantı sularının idarə olunması sistemlərini müasirləşdirərək paytaxt və ətraf qəsəbələrin ekoloji təhlükəsizliyini və su təminatını yeni mərhələyə yüksəldəcək.

***Mütərəqqi suvarma üsulları su itkisinin qarşısını alır***

Bakı və Abşeron yarımadasında su təchizatına dair keçirilən müşavirədə Baş nazirin müavini Şahin Mustafayev ötən il su təchizatı baxımından Naxçıvan Muxtar Respublikasında müəyyən çətinliklərin müşahidə edildiyini vurğulayıb: *"Belə ki, ötən il ərzində əsas iki su anbarına – tutumu 150 milyon kubmetr olan "Arpaçay" su anbarı və tutumu 100 milyon kubmetr olan Heydər Əliyev su anbarına – daxil olan suyun həcmi 2024-cü ilin eyni dövrü ilə müqayisədə, təqribən, yarıbayarı – 200 milyon kubmetrdən artıq azalmışdır. Tapşırığınıza uyğun olaraq Naxçıvan Muxtar Respublikası üzrə su ehtiyatlarından səmərəli istifadə və əhalinin su ilə dayanıqlı təchizatı məsələsi komissiyanın fəaliyyəti çərçivəsində ətraflı müzakirə edilmiş, problemlərin köklü şəkildə həlli ilə bağlı görüləcək tədbirlərin ilkin layihəsi hazırlanmış və yekunda diqqətinizə təqdim ediləcəkdir".*

Ümumiyyətlə, ölkəmizin su ehtiyatları, əsasən, Araz və Kür çayı, onların qolları suya olan tələbatın əhəmiyyətli hissəsini ödəyir. Azərbaycanda su ehtiyatlarının davamlı idarə olunması üçün müxtəlif layihələr hazırlanır. Bunlara sudan səmərəli istifadə, suvarma texnikasının modernləşdirilməsi, suyun təmizlənməsi və s. kimi tədbirlər daxildir. Bundan əlavə, beynəlxalq əməkdaşlıq və su ehtiyatlarının bölüşdürülməsi ilə bağlı digər ölkələrlə aparılan danışıqlar da mühüm yer tutur. Keçirilən müşavirədə bu məsələyə də toxunan ölkə Prezidenti qeyd edib ki, su mənbələri hər bir ölkə üçün çox önəmlidir: ***"Bizim su mənbələrinin, təqribən, dörddəbir hissəsi vaxtilə işğal altında olmuş ərazilərdə formalaşır. Bu su mənbələrinin üstünlüyü də odur ki, bunların əksəriyyəti Azərbaycan ərazisində formalaşır. Yəni başqa ölkələrdən asılılıq ərazilərimizin qaytarılması nəticəsində böyük dərəcədə azalıb. Bizim digər əsas su mənbələrimiz xaricdə formalaşır – Kür çayı, Araz çayı, Samur çayı. Əlbəttə ki, bu sahəyə olan diqqət bu həssas məsələni də nəzərə almalıdır. Bu gün problemlərdən biri həm də itkilərlə bağlıdır. Əgər itkilər aşağı səviyyədə olsaydı, hətta mövcud su ehtiyatı bizə bu gün kifayət edərdi. Halbuki biz baxmalıyıq, gələcəyi də hesablamalıyıq. Çünki əhali artır, sənaye artır, təbii ki, tələbat da artır. Ona görə itkilərin kəskin azaldılması əsas məsələlərdən biridir. Bu gün bu sahədə itkilər, təqribən, 40-45 faizdir və qeyd etdiyim kimi, proqramın icrası nəticəsində bu, kəskin azalmalıdır".***

***Sudan qənaətlə istifadə edək***

Göründüyü kimi, yağış və qar sularından istifadə üçün muxtar respublikada süni göllər yaradıla bilər, hətta mövsümə uyğun suları yığmaq və il boyunca onlardan istifadə etmək də mümkündür. İlin əvvəlindən başlayaraq muxtar respublikada yağıntıların miqdarının ötən illərə nisbətdə bir qədər çox olması isə anbarların tam dolmasına, muxtar respublikanın içməli və suvarma su təminatının yaxşılaşdırılmasına tam imkan verir. Bununla yanaşı, növbəti aylarda sudan səmərəli istifadə edərək mövcud su ehtiyatından qənaətlə faydalanmaq lazımdır. Su həyat mənbəyidir. Bu çağırış hər birimizə aiddir. İstər çöldə, istərsə də evdə sudan qənaətlə istifadəni diqqətdə saxlamalıyıq.

**Ceyhun MƏMMƏDOV**











Səkkiz noyabr 2007-ci il
Yoxlama inşa
Azərbaycan yurdum mənim
Bizim vətənimiz Azərbaycandır. Dünyada nə qədər ölkə var?! Hər kəs, hər xalqa öz ölkəsi, öz vətəni əzizdir. Mən də öz vətənim - odlar yurdu Azərbaycanıma bağlıyam, onunla nəfəs alıram, onunla yaşayıram. Candan artıq sevirəm ana torpağımı, Azərbaycanımı! Çünki adi bir torpaq parçası, sadəcə bir ərazi deyil mənim vətənim, yer üzünün ən qədim mədəniyyət ocaqlarından biridir. ana vətənim Azərbaycanıma! Biz Azərbaycan üçün, vətənimiz üçün, canımızı verər, qanımızı tökərik. Böyük Səməd Vurğun Azərbaycana aid belə şe'r yazmışdır.
El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan!
Azərbaycan, Azərbaycan!
Azərbaycan gündən - günə gözəl-

# Azərbaycan yurdum mənim

***Hələ illər öncə idi. O da bütün məktəblilər kimi hər gün məktəbə gedir, dərslərini həvəslə oxuyurdu. Amma bir fərqlilik var idi bu şagirddə və bunu bütün müəllimləri də görürdü. Yazdığı hər cümlədə, hər kiçik inşada Vətənə olan sevgisindən bəhs edirdi. Culfa şəhərində dünyaya göz açmış Vətən müharibəsi şəhidi Ceyhun Dünyamalıyevin 5-ci sinifdə qələmə aldığı "Azərbaycan, yurdum mənim" adlı inşa da məhz bu qəbildən olan yazılardandır. "Biz Azərbaycan üçün canımızı verər, qanımızı tökərik", – deyə yazan o uşaq, illər sonra bu sözləri öz əməlində sübut etdi. O zamanlar Vətən anlayışı onun üçün sevgi, bağlılıq, torpaq demək idi. Bu gün isə həmin anlayış onun adı ilə yanaşı çəkilir, müqəddəsləşir. Çünki balaca Ceyhun yazdıqlarını kağız üzərində saxlamadı, illər sonra bu arzusunu döyüş meydanında gerçəyə çevirdi.***

İllər sonra şəhidimizin Azərbaycan dili və ədəbiyyat müəllimi tərəfindən tapılan, 8 noyabr 2007-ci il tarixli inşa dəftərinin mövcudluğunu eşidəndə qərara gəldik ki, bu mövzunu oxucularımıza da təqdim edək. Elə bu məqsədlə də ilk üz tutduğumuz ünvan şəhid Ceyhun Dünyamalıyevin doğma evi oldu. Bizi qapıda Culfa şəhərinin qəhrəman oğlu Ceyhun Dünyamalıyevin anası Gülnarə xanım qarşıladı. Şəhidimizin şəkilləri ilə bəzədilmiş otağa daxil olduq. Divarlardan boylanan baxışlar, şəkillərdə donub qalmış təbəssümlər bu evin hər guşəsində Ceyhunun varlığını yaşadır. Gülnarə ana bizi həmin xatirələrlə dolu otaqla tanış edərək oğlunun döyüş yolundan söz açır. O, Ceyhunun Füzuli, Zəngilan, Qubadlı, Hadrut, Cəbrayıl və Şuşa istiqamətlərində gedən döyüşlərdə fəal iştirak etdiyini, 44 günlük Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda qanı-canı bahasına vuruşduğunu kövrək, amma qürurlu bir səslə dilə gətirir.

Söhbət əsnasında Gülnarə ana illər sonra oğlunun Azərbaycan dili və ədəbiyyat müəllimi tərəfindən tapılıb ona təqdim edilən inşa dəftərini göstərir. Deyir ki, hələ bu dəftəri açıb oxumağa cəsarət etməyib. Elə dəftəri açan kimi ilk səhifədə yazılmış tarix diqqətimizi çəkir – 8 noyabr. Bu tarix təsadüfi görünmür. Zəfər tariximizlə üst-üstə düşməsi söhbətə daha dərin bir məna qataraq bizi daha da təsirləndirir. Kövrək hisslərlə inşa dəftərinin sətirlərini oxumağa başlayırıq: "Bizim Vətənimiz Azərbaycandır. Dünyada nə qədər ölkə varsa, hər kəsə, hər xalqa öz ölkəsi, öz Vətəni əzizdir. Mən də öz Vətənimə – odlar yurdu Azərbaycanıma bağlıyam. Onunla nəfəs alır, onunla yaşayıram. Candan artıq sevirəm ana torpağmı, Azərbaycanımı. Çünki Vətən, sadəcə, bir torpaq parçası, adi bir ərazi deyil. Mənim Vətənim Azərbaycan yer üzünün ən qədim mədəniyyət ocaqlarından biridir. Ana Vətənim, Azərbaycanım. Biz Azərbaycan üçün, Vətənimiz üçün canımızı verər, qanımızı tökərik. Böyük şair Səməd Vurğun Azərbaycan haqqında belə yazmışdır:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən*
*Anam, doğma vətənimsən,*
*Ayrılarmı könül candan,*
*Azərbaycan, Azərbaycan!*

Azərbaycan gündən-günə gözəlləşir, səfalılaşır, yaşıllaşır. Onun havası da, təbiəti də gözəldir. Azərbaycanda Babək, Cavanşir kimi igidlərimiz var. Mən Azərbaycanı çox sevirəm".

Sözlərindən də aydın görünür ki, Ceyhunun uşaq yaşlarından qəlbində kök salan Azərbaycan sevgisi illər sonra onu qəhrəmanlıq zirvəsinə ucaltdı. Bu gün hər bir azərbaycanlı onun adını dərin ehtiramla çəkir, onunla qürur duyur və Ceyhunun sevdiyi kimi Azərbaycanı sevir, onu ürəyində əbədi yaşadır. Elə dəftəri yenicə oxuyub bitirmişdik ki, Gülnarə xanım oğlunun 2014-cü ildə sosial şəbəkədə 20 Yanvara aid etdiyi paylaşımı da bizə göstərdi. Həmin paylaşım Ceyhunun vətənpərvər ruhunun, şəhidlərə olan sonsuz ehtiramının bariz ifadəsi idi. O yazırdı: "Bu gün 20 Yanvar şəhidlərimizin anım günüdür. Bu tarixi heç vaxt unutmayacağıq. Mən bu gün fəxr edirəm ki, kursantam və gələcəkdə Azərbaycana xidmət edəcəyəm. Vaxt gələcək, mən də torpaqlarımızın azad olunması uğrunda döyüşlərdə iştirak edəcəyəm. Bununla qürur duyuram. Şəhidlərimizin qanı yerdə qalmayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Ceyhun illər öncə qəlbində daşıdığı bu müqəddəs amalına sadiq qaldı, Vətənə olan sevgisini canı bahasına sübut etdi. Onun həyatı və şəhidliyi bu gün gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsi, Azərbaycan sevgisinin necə yaşanmalı olduğunun canlı örnəyidir.

Şəhidimizin evində söhbətimizi yekunlaşdırdıqdan sonra üz tuturuq Ceyhunun təhsil aldığı Culfa şəhər 2 nömrəli tam orta məktəbə. Həmin məktəbdə, şəhid Ceyhun Dünyamalıyevin adını daşıyan sinif otağında Azərbaycan dili və ədəbiyyat müəllimi Mahirə Abbasova ilə həmsöhbət oluruq. Mahirə müəllim deyir ki, Ceyhuna 5-ci sinifdən 8-ci sinfə qədər dərs deyib: "Ceyhun çalışqan, məsuliyyətli şagird idi. Dərslərinə ciddi yanaşırdı, qiymətləri yaxşı olurdu. Hətta şərəf lövhəsində də şəkli var idi", – deyə müəllimə xatırlayır. O bildirir ki, bütün şagirdlərinin inşa dəftərlərini saxlayırmış. Ceyhunun şəhid olduğu xəbərini eşidəndən sonra onun dəftərini tapıb, yazdıqlarını yenidən oxuyub. Həmin yazılarda Ceyhunun vətənpərvər ruhunu, saf arzularını və yüksək düşüncələrini bir daha hiss edib. Bu xatirəni yaşatmaq üçün dəftəri şəhidin anasına təqdim edib. Bu gün dayanıb söhbət etdiyimiz, Ceyhunun adını daşıyan sinif otağı hər bir şagird üçün canlı bir nümunədir. Onun keçdiyi döyüş yolu, göstərdiyi igidlik bugünkü məktəblilərə Vətənə sevginin, torpağa bağlılığın nə demək olduğunu öyrədir. Biz Ceyhun Dünyamalıyevlə fəxr edirik. Onun adı da, xatirəsi də bu sinifdə, bu məktəbdə və ürəklərdə daim yaşayacaq.

***"Torpaq anlayışı mənim üçün hər bir şəhidin şəhid olduğu yerdir"***, – deyən Prezident İlham Əliyevin sözləri Ceyhun Dünyamalıyevin həyatında da öz parlaq əksini tapır. Çünki Ceyhun da Azərbaycan torpağı uğrunda canını fəda etdi, adını qəhrəmanlıq səhifələrinə həkk etdi. Onun uşaq yaşlarından qəlbində yaşatdığı Vətən sevgisi, saf arzuları və igidliyi gənc nəsil üçün əsl örnəkdir. Bu gün hər birimiz Ceyhunun yolunu, onun əzmini və Vətənə bağlılığını görərək torpaq anlayışını daha dərindən dərk edirik. Belə qəhrəmanlar sayəsində Azərbaycan həm keçmişi ilə, həm də gələcəyi ilə qürur duyur. Torpaq uğrunda döyüşmək, onu sevmək və qorumaq bu hər birimizin borcudur və Ceyhunun həyat hekayəsi bizə örnəkdir.

Qeyd edək ki, şəhid Dünyamalıyev Ceyhun Zeynal oğlu ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyinə görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib.

# Ölümün üzərinə gedənlər ölməzliyə qovuşdu



Həmin gündən, xalqımızın ayağa qalxıb meydana çıxıb azadlıq harayını dünyaya saldığı yanvar hadisələrindən 36 il ötür. 1990-cı ilin 19-dan 20-nə keçən gecəsi xalqımızın azadlıq, müstəqillik və ləyaqət uğrunda apardığı mübarizənin zirvə nöqtəsidir. Həmin mübarizə bir daha göstərdi ki, Azərbaycan xalqı zülmə boyun əymir, haqqı tapdandıqda susmur və Vətən naminə canından keçməyə hazırdır. Həmin gecə tankların, güllələrin qarşısına sinə gərənlər öz sonlarını düşünmədən meydana atıldılar. Vətən darda olanda qorxu bilməyən, ölümü gözə alaraq xalqına sahib çıxan insanlar şəhidlik zirvəsinə ucalmağı özlərinə şərəf bildilər. Onlar bir daha sübut etdilər ki, azadlıq asan qazanılmır, müstəqillik şəhid qanı ilə yoğrulur. O şanlı gecədə həmin meydanda tankların qarşısında əliyalın dayanan gənclər arasında qədim Naxçıvanın Şahbuz rayonunun Keçili kəndindən olan Teymur Alməmmədov da var idi. O, paytaxta təhsil almağa getmişdi. Anası oğlunu həkim görmək istəyirdi. Teymur çalışıb arzusuna çatmaq üçün universitetə qəbul olmuşdu. Teymur gənc olmasına baxmayaraq, mərdliyi, insanlara olan sevgisi və məsuliyyət hissi ilə seçilirdi. Xalqımızın azadlıq üçün meydana çıxdığı yanvar günlərində Teymur Alməmmədov yaralı insanlara yardım göstərərkən ağır yaralanır. Bir neçə gün ölüm-dirim mübarizəsi aparır və yanvarın 27-də şəhidlik zirvəsinə ucalır. Şəhidimiz yanvarın 29-da doğma Keçili kəndində böyük izdiham və ehtiramla dəfn olunur. "O, həkim olmaq arzusuna çatmasa da, ən uca zirvəyə ucalıb ağxalatlı qəhrəman olaraq imdadına yetişdiyi insanların yaddaşında əbədi olaraq iz salmaqla yanaşı, xalqımızın azadlıq dastanında da yaşayır", – deyir şəhidimizin bacısı Mələk Almәmmədova.



"1990-cı ilin o qanlı günlərində hər birimiz səhərlərimizi hüznlü, ağrılı xəbərlərlə açırdıq. Qardaşımdan uzun müddət xəbər ala bilmirdik. Bu nigarançılıq ailəmiz üçün ağır bir sınaq idi. Teymur hər zaman insanlara kömək etməyi özünə borc bilirdi. O, yaralıları gördükdə kənarda qala bilməzdi. Təhlükənin olduğunu bilirdi, amma geri çəkilmədi. Çünki Vətən və insanlıq onun üçün hər şeydən üstün idi. Millətimizin şəhidlərimizə olan hörmət və ehtiramı, bu milli ruh bu gün də yaşayır və əbədi yaşayacaq. Biz şəhidlərimizi təkcə ildönümlərində deyil, hər gün yad etməli, xatirələrini uca tutmalıyıq. Bu bizim həm mənəvi, həm də vətəndaşlıq borcumuzdur. Qarabağın azad edildiyini görmək, illərdir, ürəyimizdə daşıdığımız ağrının içində bir təsəlli, bir qürur hissi yaradır. 20 Yanvar şəhidləri azadlıq yolunun ilk qurbanları idi. Onlar sovet tanklarının qarşısında əliyalın dayanaraq xalqımızın sınmayan iradəsini, müstəqillik arzusunu bütün dünyaya nümayiş etdirdilər. Qardaşım da həmin müqəddəs yolun yolçusu oldu, canını Vətənin sabahı üçün fəda etdi. Aradan illər keçdi, amma şəhidlərin qanı yerdə qalmadı. 44 günlük Vətən müribəsində Azərbaycan Ordusu Qarabağı azad edərək tarix yazdı. Bu zəfər 20 Yanvar şəhidlərinin, Xocalı qurbanlarının, bütün şəhidlərimizin ruhunun rahatlıq tapmasına səbəb oldu. Bu gün azad Qarabağda dalğalanan üçrəngli bayraq onların arzularının gerçəkləşdiyini sübut edir. İnanıram ki, qardaşım başda olmaqla bütün şəhidlər bu zəfəri görür, ruhları şad olur".

Həmin gün o meydanda azadlıq arzusu ilə yanan onlarla ürək gülləyə tuş gəlib dayansa da, xalqımızın ürəyində yanan azadlıq alovu sönmədi. Bu alov 70 illik əsarət zəncirini əritdi. Həmin gecə o meydanda Vətənin azadlığı üçün can qurban edən Teymur kimi qəhrəmanlar isə xalqımızın qürur mənbəyinə çevrilib qəlbimizdə əbədi məşələ döndülər.

Bülbül RÖVŞƏNQIZI





# Bu elin qeyrət qalası: Sədərək

***1990-cı ilin soyuq yanvar günləri idi, gecədən yağan qar bəndi-bərəni bağlamış, cığırları, yolu-izi kəsmişdi. Bu il gəlişi ilə soyuğu, şaxtanı da gətirmişdi sanki. Ötən ilin son günlərindən başlayaraq qonşu Ermənistan ilə sərhəddə, kəndin lap yuxarı hissəsində şərabçılıq zavodu tərəfdə ara-sıra silah səsləri eşidilirdi. Erməni quldur dəstələri öz içlərində saxladıqları kini və küdurəti mərmiyə çevirib kənd sakinlərini hədəf seçirdilər. Sədərək kəndində isə heç kim qorxu keçirmirdi, insanlar atılan bir-iki gülədən qorxub geri çəkilmək fikrində deyildi. Həmin soyuq günlərin birində öz isti ocağında yatan sədərəklilər kəndi bir anda alovları ilə işıqlandıran mərmilərin səsinə oyanıb Sədərəyi alovlar içində gördülər. Yanvarın 19-dan 20-nə keçən gecə bu xalqın tarixinə qanla yazıldı. Əliyalın düşmən qarşısına çıxan kənd sakinlərinin önündə polislər və əlində ov tüfəngi olan könüllülər dayanmışdı. Həmin gecə sinəsini düşmən gülləsinə sipər edən polis kapitanı Məhərrəm Seyidov, könüllü döyüşçü Abbasəli Nəzərəliyev Naxçıvanın azadlıq və ərazi bütövlüyü uğrunda canını qurban edən ilk şəhidləri oldular. Həmin gecədən bu kiçik kənd qədim Naxçıvanın qeyrət qalasına çevrildi. Hər daşı Vətən sevgisindən, torpağı şəhid qanından yoğrulub ucaldılan qala. Məhz bax elə buna görə Vətənimizin, doğma yurdumuzun hər qarış torpağı bizim üçün əzizdir, Sədərəkdə olarkən isə bu duyğular daha da qüvvətlənir.***



Rayonun Heydərabad qəsəbəsində, Sədərək və Qaraağac kəndlərində olarkən işğalçı ölkə ilə sərhəddən cəmi bir neçə yüz metrlik məsafədəki abadlığı görərkən Vətənimizin məhz bu gözəl torpaqlardan başladığını düşünmək qürurvericidir. Ulu Öndərin "Qeyrət qalası" adlandırdığı Sədərəyi, bu qədim Oğuz yurdunu seyr etdikcə gördüyümüz gözəl mənzərə qəlbimizə sevinc gətirir. Vaxtilə düşmənə sinə gərən, düşmənlərimizin arzularını puç edən oğulların mətinliyi hesabına Sədərək bu gün başını dik tutur. Həmin döyüşlərdə sinəsini düşmən gülləsinə sipər edən oğulların mətinliyi Sədərəyi dövrəyə alan dağların vüqarı, elimizin qüruru oldu.

"Rayon həmin illərdə, ümumilikdə, 52 şəhid verib. Onların 36-sı Sədərək kəndində dünyaya gəlib. Torpağın bir qarışı qızıldan qiymətli olduğu üçün şəhid ailələrinin sonsuz kədərinin içərisində daim bir qürur hissi də var. Qürurumuz kədərimizdən böyükdür", – deyir rayon sakini Yadullah Ələkbərov. Onunla söhbətimizdə həmin günlərə qayıdır. O deyir: "Həmin gecə başlayan qanlı döyüşlərdə kənd düşmənin ağır silahlardan atdığı mərmilərlə xarabaya dönmüşdü. Sakinlər həm azğınlaşmış düşmənlə, həm də aclıqla, qışın sərt üzü ilə mübarizə aparsa da, sınmadı, əyilmədi. Çətin idi, amma mübarizədən dönmürdük. Bir posta elə olurdu ki, onlarla igid can atırdı. Sədərək döyüşlərində göstərilən qəhrəmanlıq haqqında nə qədər danışsam, azdır. Bircə onu bilirəm ki, bizim üçün Vətəndən, torpaqdan əziz heç nə yox idi, indi də elədir. Döyüşə gedən oğullar öz ailələrini belə kənddən çıxarmır, "Biz döyüşüb, sizi qoruyacağıq", – deyirdilər. Analarımız, qadınlarımız evlərdə qalıb bizə – səngərə isti çörək, yemək bişirib göndərirdilər. Bəzən isə elə olurdu ki, günlərlə ac qalırdıq, yenə də döyüşürdük. Həmin il qış da sanki öz "cəsarətini" göstərirdi. Elə soyuq, şaxtalı havalarda isti geyim, yanacaq olmadan döyüşür, düşmənə layiqli cavab verirdik".

Yadulla Ələkbərov onu da deyir ki, Sədərək döyüşlərində bacısının həyat yoldaşını və əmisi nəvələri – kiçikyaşlı Elvini və Maliki itiriblər. Bütün bunlar onların döyüş əzmini qırmayıb, şəhidlərimizin qisası onların qisas hissini daha da alovlandırıb: "Bu xalq, bu millət heç bir zaman düşmənə baş əyməyib, əyməyəcək də. Bunu Vətən müharibəsində sübut etdik. Babalarımızdan bizə yadigar qalan və oğullarımıza ərməğan etdiyimiz hünər və cəsarəti onlar da Vətən müharibəsində dünyaya nümayiş etdirdilər. 30 ildir, düşmən caynağında qalan torpaqlarımızı düşməndən azad etdilər. Vətən müharibəsinə qardaşım və əmioğlum birlikdə yollanmışdı. Əmioğlum Niyaməddin Ələkbərov şəhidlik zirvəsinə yüksəldi, qardaşım Şuşaya kimi döyüş yolu keçdi, qalib ordunun qalib fərdi kimi bu gün xidmətini Şuşada davam etdirir".

Rayon sakini Samil Kazımov da həmin günlərin canlı şahidi, həm də iştirakçısıdır. O, Ucubizdə, Mil təpəsində, Qaraağacda döyüşüb: "Yanvarın 19-dan 20-nə keçən gecə başlayan döyüşlərdə silahımız, isti geyimimiz olmasa da, qəlbimizi isidən Vətən sevgimiz var idi. Səngərdə "Haralısan?", sualı yox idi, təkcə Vətən var idi. Hamımız yaxşı dərk edirdik ki, qeyrət qalamız Sədərəkdi, onu itirsək, bütün Naxçıvanı təhlükəyə atarıq. Hamı bir olub, əlbir olub, bir hədəfə, düşmənə qarşı döyüşürdü. Elə gecə olurdu ki, səhərə qədər nəfəs belə almadan döyüşürdük. Sərt hava şəraiti, silah azlığı bizi sındırmırdı. Onlar səhərə kimi dinc Sədərəyi güclü atəşə tuturdular. 12 min əhalinin yaşadığı kəndin hər səhəri döyüşlə açılırdı. İgid döyüşçülərimiz mərdlik göstərərək düşmənin iradəsini qırmağa nail oldular. Bir-birindən qeyrətli oğullar canlarını Vətən yolunda qurban verirdi. Cəbhədə olan hər kəs əli silah tutanların necə qəhrəmancasına vuruşduqlarının şahidi olurdular. Toplardan və zirehli texnikalardan atılan mərmilərlə kəndin yolu-izi də tamam dağıdılmışdı. 1990-cı illərdə ermənilər bu torpağın nə qədər əziz və müqəddəs olduğunu çox gözəl anladılar. Təkcə 1990-cı ilin mart ayında ermənilər Sədərəyə 300-ə yaxın top mərmisi atdı, 500-ə yaxın evi, məktəb binasını, sosial obyektləri dağıtdı. Döyüşlərdə onlarla igid canından keçdi. Bütün bunlara baxmayaraq, mübarizə əzmimiz itmədi, düşmənə aman vermədik. Bu gün Azərbaycanımızın azad səmasında – Sədərəkdə hakim yüksəkliklərdə bayrağımız dalğalandıqca onların da ruhu şad olur".

"Həmin günlərdə bir anda hücuma məruz qalan muxtar respublika ərazisində nizamlı ordu yox idi və bu da özü ilə bərabər bir çox çətinlikləri də gətirirdi. Silah-sursatın, geyim və yemək təminatının olmaması könüllü döyüşçülərin inamını sındıra bilmirdi. Çünki ürəklərində torpaq, Vətən sevgisi, arxalarında isə el vardı. Kimin gücü nəyə çatdı onu Vətən üçün döyüşən oğullara göndərirdi", – deyir Sədərək kənd sakini, 75 yaşlı Xasa Hüseynova. Soyuq, şaxtalı qış gecələrində çıraq işığında yun corab, papaq toxuyub, zirzəmidə sac qurub zorla tapdıqları undan çörək bişirib səngərə yollayırdılar: "Elə vaxt olurdu ki, güllə yağışı imkan vermirdi ki, bir tikə çörək çata o döyüşən oğullara. Günlərlə ac-susuz, qarın altında sinəsini düşmən gülləsinə sipər edirdi səngərdə dayanan igidlər. Bütün el bir olmuşdu həmin çətin günlərdə. Naxçıvanın hər yerindən yemək, geyim-keçim göndərirdi camaat Sədərəyə. İnsanlar əllərindən gələni edirdilər ki, torpağımız əldən getməsin. Düz deyib atalarımız: "El bir olsa, dağ oynadar yerindən". El bir oldu Vətənin qapısı yarılmadı. Yüzlərlə mərmi düşdü bu kəndə, yol-iz dağıldı, evimiz xarabaya döndü, məktəb, xəstəxana kül oldu, amma heç kimin iradəsi sınmadı. Biz bir olub qalib gəldik. Həmin gündən düşmən silahları heç susmadı, ta ki Ulu Öndər Heydər Əliyev Naxçıvana gələnə kimi. Onun gəlişi bizə ümid, düşmənə qorxu verdi. Və silahlar susdu. Sədərəklilər sinəsini düşmən gülləsinə sipər edən oğullarını da bizə işıqlı gələcək verən Heydər oğlunu da daim qəlbində yaşadır, onlara minnət duyur".



Bəli, bütün bu hadisələr burada bu kiçik kənddə baş verdi. Çox da uzaq olmayan keçmişimizdə. Sakinlər güllə yağışı altında qalsa da, evini tərk etmədi; düşmən önündə dayandı, yurdlarını qorudular. Düşmənin atdığı "qradlar", "alazanlar" torpağımıza yağış kimi yağsa da, doğma yurdunu, ev-eşiyini heç kim tərk etmədi. Milin bəyaza bürünmüş zirvəsi igid oğulların Vətən üçün axan qanı ilə al-qırmızı rəngə boyandı, körpə fidanlarımızın qaməti düşmən mərmisi ilə sındı, oğlu səngərdə olan, kəndi tərk etmək istəməyən ana xain gülləyə tuş gələndə oğlu səngərdə "Şəhadət ölüm deyil, əbədi yaşamaqdır", – dedi və Vətənə can qurban etdi. Biz bunları kitablardan oxumadıq, filmlərdə görmədik bütün bunları yaşayıb şahidlik etdik. Bu gün Sədərək kimiləri üçün, sadəcə, bir yaşayış məntəqəsi olsa da, biz naxçıvanlılar üçün döyüşən kənd, qəhrəman eldir. Bir məğrurluq abidəsidir, Naxçıvanın keçilməz səddi, alınmaz qeyrət qalasıdır.

✍ **Ramiyə ƏKBƏROVA**

# Qələbə qurbansız olmaz




Uşaqlıqdan Qanlı Yanvar kimi yaddaşımızda qalan həmin gün Azərbaycan xalqının azadlıq iradəsinin sarsılmazlığını bütün dünyaya göstərdi. 1990-cı ilin Yanvar hadisələri tariximizdə dərin iz buraxmaqla yanaşı, azadlıq uğrunda canından keçən qəhrəmanların adını da yaddaşlara həkk etdi. Həmin qəhrəmanlardan biri də 20 Yanvar şəhidi Rahim Babayevdir. Şəhidin evinə gedərkən bizi qarşılayan sükut, divarlardakı xatirələr və ailənin baxışlarındakı dərin qürur hissi hər şeyi sözsüz anlatmağa kifayət edirdi. Bu evdə keçmişlə bu gün arasında görünməz bir bağ var. Şəhidin yoxluğu hiss olunsa da, onun qoyduğu izlər ailəsinin həyatında, xatirələrində və seçdikləri yolda yaşayır. 1970-ci ildə Ordubadda anadan olan Rahim ailədə valideynləri ilə birlikdə bir qardaş və bir bacı ilə böyümüşdü. Rahim məktəbi 1987-ci ildə əla qiymətlərlə bitirib Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olunmuşdur.

Anası Yaqut xanım oğlundan danışarkən deyir ki, Rahim ailənin ilk övladı olub və kiçik yaşlarından istedadı ilə seçilib. Məktəb illərində müxtəlif fənn olimpiadalarında, eləcə də respublika səviyyəli olimpiadalarda iştirak edib. Şahmata xüsusi marağı olub, yarışlarda çıxış edərək birinci yerə layiq görülüb. Balaca yaşlarından şeir yazan şəhid düşüncələrini sözə köçürməyi bacarırdı. Bu gün ailəsinin qoruyub saxladığı dəftərlərdən biri onun daxili dünyasına açılan sükutlu bir pəncərədir. Rahimin öz qələmindən çıxan "Ötən günlər" adlı şeirində sanki başına gələcəklərdən xəbərdar idi:



*Yadıma salıram ötən günləri,*
*O ötən ayları, keçən illəri.*
*Qaytarmaq olarmı bir daha geri*
*O ötən günləri, ötən illəri…*

Bu misralarda zamanın sürəti, uşaqlığın dəyəri və insanın öz-özü ilə söhbəti açıq şəkildə hiss olunur. Daha da təsirlisi odur ki, şeirin son bəndi şəhidin haqq və ədalətlə bağlı mesajı kimi səslənir:

*Haqq yolunda candan belə keçərəm,*
*Qoy desinlər Rahim kişi oğlu kişi idi.*

Şəhidimizin bacısı Ruhiyyə xanımla söhbətimizdə dedi ki, Rahim qayğıkeş və ailə canlı idi. Onun ya həkim, ya da müəllim olmasını istəyirmiş. Həmin il iki qardaşı Bakıda bir evdə yaşayır, ailənin digər üzvləri isə Naxçıvanda olurdu. Qardaşları bir-birindən xasiyyətcə fərqli olsalar da, Rahim daha çılğın və cəsarətli idi. Qarabağ hadisələri başlayanda Rahim bu məsələyə biganə qalmayıb, Qarabağa getmək üçün özünə qrup da yaradır. Ailəsinin isə bundan xəbəri yox idi. Yola düşsələr də, yollar bağlı olduğu üçün geri qayıtmalı olublar. Bir müddət sonra Rahim ailəsinə məktub göndərir. Məktub yanvarın 17-də yazılmışdı. O məktubda ata-anasından halallıq istəyirdi. Müsahibim deyir ki, yanvar ayının 25-də atalarına zəng gəlib ki, oğlu yoxa çıxıb, artıq beş gündür, ondan xəbər yoxdur.

"Sən demə, Rahim Bakı şəhərində günlərdir, davam edən azadlıq hərakatında meydana çıxan insanlarla bərabər imiş. O da gecə-gündüz demədən müstəqillik arzusu ilə yanan ürəyini soyutmaq üçün əliyalın çıxıbmış tankların önünə. Sonradan eşitdik ki, dostunu xilas edib, özü isə gülləyə tuş gələrək ağır yaralanıb", – deyə Ruhiyyə xanım qeyd edir.

Müsahibim əlavə edir: "Atam hər şeyi ürəyində hiss edirmiş. Bir gün sonra bizə zəng edərək Rahimin yaralı olduğunu bildirdilər. Bakıya gəlməyimizi istədilər. Elə həmin gün Rahim şəhidlik zirvəsinə ucalıb, sən demə. 27 yanvarda o, Bakıda Şəhidlər xiyabanında dəfn edildi və Naxçıvanın ilk 20 Yanvar şəhidi olaraq yaddaşlarımızda qaldı.

"Qələbə qurbansız olmur", – deyən Rahim Babayev bu sözlərini öz hərəkətləri ilə təsdiqlədi. 20 Yanvar səhəri xalqımızın müstəqillik yolunda açılan sabahının xəbərçisi oldu. Gənc ömrünü, gələcək arzularını Vətənin işıqlı sabahına qurban verən bütün qəhrəmanlar kimi o da bu xalqın qəlbində özünə əbədi abidə ucaltdı.

✍ **Zəhra VƏLİYEVA**

# Mübarizlər məktəbinin vətənpərvər yetirmələri

***Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kolleci Vətənə, torpağa sədaqət yolunda addımlayan gənclərin yetişdiyi mübarizlər məktəbidir. Burada hər bir kursant gələcəyin mərd və vətənpərvər əsgəri kimi formalaşır. Biz də məktəbin kursantları ilə görüşərək onların arzuları, qarşıya qoyduqları hədəflər və burada öyrəndikləri biliklər haqqında söhbətləşdik. Onların hər biri həm fiziki, həm də mənəvi baxımdan güclü olmağın nə demək olduğunu bu məkanda öyrənir. Elə korpusa yenicə daxil olmuşduq ki, tənəffüsdə vətənpərvərlik mahnılarının səsləndiyini eşitdik. Dəhlizlərdə addımlayan kursantların nizam-intizamlı hərəkətləri, bir-birinə hörmətlə yanaşmaları və üzlərindəki qürurlu ifadə sanki bizə çox şey danışırdı.***


Anar Abbasov


Havadar Dilavərli



Vüqar İsmayılov


Rəhim Mürsəliyev

***Yaradıcılığım daxili dünyamı ifadə etməyin ən təsirli yoludur***

Söhbətimizə başladığımız ilk kursant ***Anar Abbasov*** oldu. Öyrənirik ki, onun Naxçıvan Hərbi Kollecində təhsil almaq qərarı uşaqlıqdan formalaşan hərbi formaya sevgisi, Vətənə xidmət etmək arzusu və hərb sahəsinə olan dərin hörmətindən qaynaqlanır: "Özümü hər zaman ölkəmə faydalı bir fərd kimi görmək istəmişəm. Hərb sahəsi isə bu istəyimin ən doğru ünvanı oldu. Gələcəkdə əsgərlərə rəhbərlik edəcək biri kimi böyük məsuliyyət daşıdığımı dərk edirəm".

Onun sözlərinə görə, hərbi təhsildə nizam-intizam ona vaxtı düzgün idarə etməyi, hər vəziyyətdə soyuqqanlı qalmağı və məsuliyyətli davranmağı öyrədib. Bu keyfiyyətlər həm dərslərində, həm də şəxsi həyatında ona böyük üstünlük yaradır. Anar rəsm qabiliyyətinə malik kursantlardandır. Yaradıcılıq onun həyatında mühüm yer tutur: "Rəsm çəkmək mənim daxili dünyamı ifadə etməyin ən təsirli yoludur. Rənglərin dili ilə düşüncələrimi kağıza köçürmək həm sakitlik verir, həm də yeni baxış bucağı qazandırır. Hərbi kollecdə aldığım təlimlər rəsmdə də daha dəqiq və diqqətli işləməyimə kömək edir".

Kursantın sözlərinə görə, sıx rejimə baxmayaraq, yaradıcılığa mütləq vaxt ayırır: "Axşam istirahət saatlarında eskizlər çəkirəm. Bu məşğuliyyət gün ərzində yığılan gərginliyi azaldır. Məncə yaradıcılıq insanın ruhunu qoruyan ən vacib xüsusiyyətlərdən biridir. Gələcək hədəfləri barədə danışarkən Anar Abbasov bildirdi ki, rəsm texnikasını inkişaf etdirib gələcəkdə peşəkar sərgilərdə iştirak etmək istəyir. Onun üçün əsas olan Vətənə layiqli hərbçi kimi xidmət etməkdir. Hərbi sahədə məqsədi isə seçdiyi ixtisas üzrə peşəkar zabit olmaq, yüksək rütbələr qazanmaq və ölkəsinə daha böyük xidmət göstərməkdir.

***Qəlbimlə yazdığım misraları şərəflə geyindiyim hərbi forma ilə qoruyuram***

Həmsöhbət olduğumuz digər kursant ***Havadar Dilavərli*** sözünə belə başladı: "Hər bir azərbaycanlı gəncin arzusudur ki, Vətənə faydalı olsun. Mən də bu formanın məsuliyyətini hər gün daha dərindən hiss edirəm". Havadarın sözlərində bir gəncin sadəlövhlüyü yox, artıq formalaşmağa başlayan bir əsgər iradəsi sezilirdi: "Hərbi təhsil mənim üçün peşə öyrənməklə bərabər, həm də Vətənə sədaqət, intizamlı həyat tərzi və fədakarlıq kimi ali dəyərləri mənimsəmək deməkdir. Eyni zamanda olduğumuz bu mühit insanın xarakterini formalaşdırır, onu həm fiziki, həm də mənəvi cəhətdən daha güclü edir".

Havadar Dilavərli bildirdi ki, hərbi formanı geyinərkən Vətən qarşısında məsuliyyət hissini böyük qürur və şərəflə daşıyır: "Kollecimizdə hərbi təhsillə yanaşı, müxtəlif məşqlərə də cəlb olunuruq. Onlar arasında ən çox sevdiyim məşq döyüş-taktiki hazırlıqdır. Bu məşqlər bizə real şəraitdə düşünməyi, komanda ilə işləməyi və ani qərarlar verməyi öyrədir. Həmçinin şəhidlərimizin əmanətini qorumaq kimi böyük bir missiyanı xatırladır".

Müsahibim həm də şeir yazdığını deyir. Elə söhbətimizin bu yerində şeirlərindən birini səsləndirir: "Şeir yazmağa məktəb illərindən başlamışam. İlk cəhdlərim daha çox Vətən sevgisi, torpaq həsrəti və duyğularımın saf təzahürü idi. Əlbəttə ki, ilk yazdığım misralar sadə idi, amma içindəki səmimiyyət bu gün də qəlbimdə yaşayır. Sosial şəbəkələrdə izlənilən və hamı tərəfindən bəyənilən videoma yazılan müsbət rəylər mənə böyük motivasiya verdi. Oxucuların hisslərinə toxuna bilmək və onların düşüncələrində iz buraxmaq məni daha da yazmağa təşviq etdi. Bu həm də sözümün qarşı tərəfdə qiymət tapdığını görmək baxımından da çox dəyərli idi mənim üçün. İlhamım isə həm hərbi həyatdan, həm də şəxsi duyğulardan qaynaqlanır. Hərbi nizam-intizam, birlik və qardaşlıq hissi yazdığım şeirlərə güc qatır. Şəxsi duyğularım isə şeirlərə dərinlik və səmimiyyət verir. Qəlbimlə yazdığım misraları, şərəflə geyindiyim hərbi forma ilə qoruyuram", – deyir kursant Havadar Dilavərli. Gələcək hədəfləri haqqında danışan zaman isə bildirdi ki, gələcəkdə hərbi qulluqçu kimi daha yüksək bilik və bacarıqlara yiyələnərək Vətənimizin müdafiəsinə töhfə verməyi hədəfləyir.

***Məqsədlərimizin fövqündə bir amal dayanır, Vətənə nümunəvi bir zabit kimi xidmət göstərmək***

Kollecdə idman sahəsi üzrə seçilən gənclər arasında adı xüsusilə çəkilən kursant ***Vüqar İsmayılov*** deyir ki, idman onun ən güclü tərəfidir.

Onun sözlərinə görə, fiziki davamlılıq, çeviklik və komanda ilə işləmə bacarığı həm təlimlərdə, həm də sıra və döyüş hazırlığında ona mühüm üstünlük qazandırır: "İdman mənəvi dözümlülük tələb edir və bu keyfiyyətlər hərbi həyatda çox dəyərlidir". Onun sözlərinə görə, hərbi təhsilin idmanla sıx bağlı olması bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanlar yaradır: "Fiziki hazırlıq dərsləri, səhər məşqləri və qoşun hazırlığı mənim gücümü və dözümlülüyümü artırır. Boş vaxtlarımda əlavə məşqlər etməyə çalışıram. Sıx rejim inkişafıma mane olmur, əksinə, məni daha da gücləndirir".

Kursant gələcək planlarından da danışaraq deyir ki, idman sahəsində daha peşəkar olmağı, xüsusilə hərbi-idman yarışlarında iştirak edərək nailiyyətlərini artırmağı hədəfləyir. Lakin bütün məqsədlərin fövqündə bir amal dayanır: Vətənə güclü, hazırlıqlı və nümunəvi bir zabit kimi xidmət göstərmək. "İdman bu yolda mənə əlavə güc və motivasiya verir", – deyə gənc kursant vurğulayır.

***Müasir orduda çevik düşünmə, analitik yanaşma hər bir hərbçi üçün vacib keyfiyyətlərdəndir***

Naxçıvan Hərbi Kollecinin informasiya texnologiyaları üzrə bacarıqlı gənclərindən olan kursant ***Rəhim Mürsəliyev*** bu gün müasir ordunun təməlini təşkil edən texnikiliyin əhəmiyyətini dərindən dərk edən kursantlardandır. O özünü belə təqdim edir: "İnformasiya texnologiyaları sahəsində bacarıqlıyam. Kompüter biliyim, proqramlarla işləmək, məlumatı analiz etmək və texniki problemləri sürətlə həll etmək qabiliyyətim yüksəkdir. Bu biliklər hərbi hazırlıqda mənə ciddi üstünlüklər qazandırır. Çünki müasir orduda texnologiyanın rolu ölçüyəgəlməz dərəcədə böyükdür və ona görə də çevik düşünmə, analitik yanaşma hər bir hərbçi üçün vacib keyfiyyətlərdəndir. Sıx tədris və məşq qrafikinə baxmayaraq, kursant boş vaxtlarını səmərəli dəyərləndirir, müxtəlif proqramlar üzrə araşdırmalar aparır, texniki yeniliklərlə maraqlanır, öz üzərində çalışmağı gündəlik vərdişə çevirir".

Onun sözlərinə görə, texnologiya sahəsində baş verən yenilikləri izləmək həm maraq, həm də gələcək hərbi fəaliyyəti üçün vacib bir addımdır. Gələcək planlarından danışan Rəhim bildirir ki, xidmətlə yanaşı informasiya texnologiyaları üzrə əlavə kurslar keçməyi düşünür, hərbi sahədə tətbiq olunan texniki sistemlərlə bağlı biliklərini daha da artırmaq istəyir. Amma bütün bunların fonunda əsas məqsədi Vətənə sədaqətlə xidmət etməkdir.

Bu gün qürur hissi ilə demək olar ki, Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kolleci nümunəvi bir təhsil ocağı kimi ordumuzun savadlı, bacarıqlı, ləyaqətli, vətənpərvər zabitlərlə təmin olunması yolunda səmərəli fəaliyyət göstərir. Onların qarşısında duran başlıca vəzifə isə kursantlara hərbi-vətənpərvərlik tərbiyəsinin bundan sonra da yüksək səviyyədə aşılanması, onların bu ruhda formalaşdırılmasının diqqətdə saxlanılmasıdır. Ərazi bütövlüyümüzün, müstəqilliyimizin, dövlətçiliyimizin qorunmasında bu amillər əsas şərtlərdir.

**"Şərq qapısı"**

## Naxçıvanda dəmir yolu layihəsi çərçivəsində 10 stansiyanın yenidən qurulması, 29 körpünün, 4 tunelin tikintisi planlaşdırılır

Bunu Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dəmir yolu layihəsi barədə "Şərq qapısı"na açıqlamasında "Azərbaycan Dəmir Yolları" QSC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Bəxtiyar Hacıyev deyib.



Onun sözlərinə görə, Naxçıvan Muxtar Respublikasında dəmir yolu xəttinin layihələndirilməsi və tikinti işlərinə 2025-ci ildən etibarən başlanılıb. Layihə regionun nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun şəkildə yenilənməsini və dəmir yolu şəbəkəsinin funksionallığının artırılmasını hədəfləyir.

Bəxtiyar Hacıyev bildirib ki, layihə çərçivəsində əsas dəmir yolu xətlərinin uzunluğu 194,1 kilometr, yan yollarla birlikdə isə 264 kilometr təşkil edir: "Bu isə Naxçıvanın dəmir yolu xəritəsində əhəmiyyətli genişlənmə deməkdir. Tikinti işləri zamanı mövcud infrastrukturun yenilənməsi ilə yanaşı, yeni mühəndis qurğularının inşası da nəzərdə tutulur. Belə ki, layihə çərçivəsində 10 stansiyanın yenidən qurulması, 29 körpünün, 4 tunelin tikintisi planlaşdırılır. Ümumilikdə isə 814 mühəndis qurğusunun inşası həyata keçiriləcək. Bu layihə Naxçıvan Muxtar Respublikasının nəqliyyat-logistika potensialının artırılmasına, yük və sərnişin daşımalarının təhlükəsiz və sürətli şəkildə həyata keçirilməsinə mühüm töhfə verəcək. Eyni zamanda bölgənin ölkədaxili və beynəlxalq nəqliyyat əlaqələrinin güclənməsi baxımından da layihə strateji əhəmiyyət daşıyır".

Bəxtiyar Hacıyev əlavə edib ki, "Azərbaycan Dəmir Yolları" QSC ölkə üzrə müasir, dayanıqlı və təhlükəsiz dəmir yolu infrastrukturunun formalaşdırılmasını prioritet hesab edir və Naxçıvanda icra olunan bu layihə də həmin strategiyanın əsas istiqamətlərindən biridir.

# Ruhu sarsılmaz xalqın canlı yaddaşıyam



**Məni tanıyırsınız? Mən o qırmızı çiçəyəm ki, bir zamanlar adım sevinc, ətrim xoşbəxtlik idi. Məni bahar müjdəçisi kimi pəncərə önlərinə qoyardılar, sevgililər bir-birinə uzadanda ləçəklərim utandığından bir az da qızarardı. Toy masalarının bəzəyi, bəxtəvər gəlinlərin ağappaq libasındakı yeganə rəng mən idim. O vaxtlar mənim üçün qırmızı, sadəcə, bir rəng idi, bir taleyin möhürü yox... 1990-cı ilin o yanvar gecəsinə qədər.**

O gecə şəhərin üzərinə çökmüş qaranlıq adi bir gecəyə bənzəmirdi. Şəhər sanki nəfəsini udub baş verəcək qiyaməti gözləyirdi. Sonra birdən sükut param-parça oldu. Göyləri məhv edən güllə işıqları, küçələri lərzəyə gətirən o ağır, soyuq tank səsləri... Mən o an vitrinlərin arxasında, çiçək dükanlarının şüşələrində donub qalmışdım. Gördüm... Əliyalın insanların polad divarlara qarşı necə bir inamla yeridiyini gördüm. Tanklar körpə fidanları biçəndə, mərmi səsləri ana fəryadlarını boğanda, mənim də ləçəklərim bir-bir sarsıldı. O gecə mən təkcə çiçək, təkcə bəzək idim, amma insanlar bir millətin şərəf dastanını öz canları ilə yazırdılar.

Səhər açıldı... Amma o sabah heç bir sabaha bənzəmirdi. Günəş doğmağa utanırdı sanki. İnsanlar küçələrə axışdılar. Amma bu dəfə əllərində bayram sovqatı deyil, məni daşıyırdılar. Məni topladılar, qucaq-qucaq dəniz kənarına, Azadlıq meydanına, o qanlı asfaltın üzərinə səpdilər. Tankların keçdiyi o dəhşətli yollara məni elə düzdülər ki, elə bil, yer özü yaralanmışdı və mən o yaranın qanı idim.

O an ləçəklərim mənə ağır gəldi... Şəhid qanı ilə suvarılmaq nə deməkdir, bilirsinizmi? İsti qan yarpaqlarıma toxunanda mən artıq bitki olmağımdan əl çəkdim. Mən o gün bir millətin fəryadı oldum. Mən o gün şəhidlərin sızlayan ruhuna büründüm. O gündən sonra məni heç kim xoşbəxtlik üçün dərmədi. Mən toyların yox, matəm xiyabanlarının daimi sakini oldum. Məni hər görəndə insanların boğazı düyünləndi, məni hər görəndə anaların göz yaşları yarpaqlarımın üzərinə yağış kimi yağdı.

Mənə həmin gündən "matəm çiçəyi" dedilər. Amma yox! Mən matəm deyiləm! Mən o tankların altında əzilməyən iradənin rəmziyəm. Mən arzuları yarımçıq qalan o gənc İlhamın cəsarətiyəm, mən həyat yoldaşının arxasınca canını fəda edən Fərizənin sədaqətiyəm. Mən bu torpağa bir toxum kimi deyil, bir azadlıq ağacı kimi dəfn olunan o igidlərin cənnətdəki ətriyəm.

İndi hər il yanvar ayı gələndə mənim bağrım başdan-başa yenidən qan ağlayır. Şəhidlər xiyabanının o soyuq, lal mərmərlərinə uzanıram. Gecələr ulduzlarla pıçıldaşırıq, o məzarlarda yatan qəhrəmanların yarımçıq qalmış arzularını bir-bir yuxularına daşıyıram. Mənə baxanda təkcə kədər görməyin, qürur görün! Çünki mən o gecə günahsız insanların tökülən müqəddəs qanından rəng alıb, bu gün ba-



şınız üzərində dalğalanan o üçrəngli bayrağın qırmızısına çevrildim.

Mən qərənfiləm... Ruhu sarsılmaz bir xalqın canlı yaddaşıyam. Məni hər zaman o şanlı gecənin şahidi, azadlığın isə sönməyən çırağı kimi qəlbinizdə bəsləyin.

✍ **Elnurə CƏFƏROVA**

## *"Tədris motivasiyası və öyrənməyə marağın artırılması"* mövzusunda valideyn konfransı olub



*Naxçıvan Şəhər Təhsil Şöbəsinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Texniki Kollecində "Tədris motivasiyası və öyrənməyə marağın artırılması" mövzusunda valideyn konfransı keçirilib.*

İlk olaraq Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Konfransı giriş sözü ilə Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Təhminə Mustafayeva açaraq konfransın keçirilməsinin əsas məqsədinin təhsil müəssisələri ilə ailə arasında əməkdaşlığı gücləndirməklə yanaşı, uşaqların hərtərəfli inkişafını təmin etmək, valideynin və uşağın akademik, eyni zamanda sosial və emosional inkişafında rolunu inkişaf etdirməkdən ibarət olduğunu bildirib. T. Mustafayeva təhsil müəssisələrində sosial, psixoloji mühitin yaxşılaşdırılması, valideynlərin təhsil prosesinə sistemli şəkildə cəlb olunması, uşaqlarımızın sağlam mənəvi mühitdə formalaşması üçün valideyn məsuliyyətini ön plana çıxarmaq və təlim-tərbiyə prosesində birgə fəaliyyət imkanlarını genişləndirməkdən ibarət olduğunu iştirakçıların diqqətinə çatdırıb.

Valideyn qismində iştirak edən Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədov çıxış edərək məktəb-ailə tərəfdaşlığını möhkəmləndirmək üçün özünün illərlə topladığı həyat təcrübəsi, cəmiyyətimizə verdiyi töhfələr və gənc nəsillərə yolgöstərici mövqeyi haqqında iştirakçılara məlumat verib.

Konfrans iki hissədən ibarət olaraq keçirilib. Birinci hissədə mövzu ilə bağlı panel müzakirə təşkil olunub, ikinci hissədə isə valideynlər tərəfindən ünvanlanan suallar cavablandırılıb.

Panel müzakirədə konfransın moderatoru – Naxçıvan Şəhər Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Həmidə Qoçəliyeva, spikerlər – Naxçıvan Dövlət Universitetinin Magistratura və doktorantura mərkəzinin direktoru, psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev, Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin direktoru Abdulla Əsgərov, Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Dürdanə Quliyeva "Tədris motivasiyası və öyrənməyə marağın artırılması"na dair mövzuya üç yanaşma ilə – məktəb rəhbərliyi, müəllim və məktəb psixoloqu baxış bucağından aydınlıq gətiriblər.

Mövzu ətrafında spikerlər tərəfindən müzakirələr aparılıb, iştirakçıların fikir və təklifləri dinlənilib. Valideynlərin fəal iştirakı konfransın səmərəli keçməsinə şərait yaradıb. Eyni zamanda valideynlərlə mövzu ətrafında sorğu keçirilib.

## Şahbuzun dağlıq ərazisində vəhşi heyvanlar üçün biotexniki tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Şahbuz rayonunun qalın qar örtüyü ilə əhatə olunan "Zərnətün dərəsi" adlanan ərazidə çöl heyvanlarının qida maddələrinə olan tələbatının qismən ödənilməsi məqsədilə biotexniki tədbir həyata keçirilib.

Tədbir çərçivəsində çöl heyvanlarının sıx məskunlaşdığı, eyni zamanda qalın qar örtüyünün müşahidə olunduğu "Zərnətün dərəsi" adlanan əraziyə 50 kip qaba yem və 200 kiloqram daşduz dağıdılıb.

Nazirlik tərəfindən fauna ehtiyatlarının mühafizəsi və artırılması məqsədilə keçirilən biotexniki tədbirlərin zərurət yarandığı digər ərazilərdə də davam etdirilməsi nəzərdə tutulur.

### *İtmişdir*

"Buta-2014" MMC-yə məxsus CLC-365$^{A}$ markalı mini yükləyicinin 185-FX-113 nömrəli dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Vənənd kəndində yaşamış Bayramov Telman Fərrux oğlunun adına olan JN-189 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhərində yaşamış Əsgərov Həsənqulu Abbasəli oğlunun adına olan Ordubad şəhəri, Təbriz küçəsi 59 ünvanında yerləşən fərdi yaşayış evinə məxsus 598 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək şəhəri, Qoşadizə məhəllə sakini Rəsulov Eldar Əsəd oğlunun adına olan JN-141 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kənd sakini Nəcəfov Fizuli Abbas oğlunun adına verilmiş JN-184$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhərində yaşamış Sadıqova Məryəm Terentyevnanın adına olan Ordubad şəhəri, N.Rəfiyev küçəsi, döngə 4, ev 7 ünvanında yerləşən fərdi yaşayış evinə aid 1077 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Əhmədov Ləzgi Həsən oğlunun adına olan JN-098$^{A}$ nömrəli, 10207018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Təzəkənd sakini Kərimova Sevda Bağır qızına məxsus JN-53$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kəndində yaşamış Həsənov Eldar Bulud oğluna məxsus JN-438$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

**Baş redaktor:**
**SARA ƏZİMOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00

Tiraj: 550. Sifariş № 7

*Nömrəyə məsul:* **Bülbül Rövşənqızı, Zəhra Vəliyeva**

*Dizayner:* **Həbibə Allahverdiyeva**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*